№ 27 (1022) 5-11 iyul 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MMC-NİN YARIMSTANSİYALARINDAN BİRİNDƏ BAŞ VERMİŞ QƏZA İLƏ ƏLAQƏDAR DÖVLƏT KOMİSSİYASININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdir. Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdır. Təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi nəticəsində bir neçə saatdan sonra elektrik enerjisi ilə təminat əsasən bərpa olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədi ilə qərara alıram:

1. "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Komissiyanın sədri
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini
Komissiya sədrinin müavini
Azərbaycan Respublikasının energetika naziri
Komissiyanın üzvləri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının Baş prokuroru
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri
Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı
Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun direktoru.

2. Dövlət Komissiyası:

2.1. hadisənin baş verməsi səbəblərini araşdırsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirsin və həyata keçirsin;

2.3. görülmüş işlər haqqında Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat versin.

3. Azərbaycan Respublikasının Baş Prokurorluğu baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**3 iyul 2018-ci il**

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident,

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Regional çağırışlara və terrorizmə qarşı mübarizədə, təhlükəsizlik məsələlərində, eləcə də iqtisadi sahədə ölkələrimiz yaxından və səmərəli əməkdaşlıq edirlər.

Enerji sahəsindəki əməkdaşlığımız xüsusilə əhəmiyyətlidir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən neft-qaz layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi məmnunluq doğurur. Bu yaxınlarda istismara verdiyimiz Cənub Qaz Dəhlizi isə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

Bununla yanaşı, ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamışdır. Biz Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunacağı, qaçqın və məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıdacağı günü səbirsizliklə gözləyirik. Buna görə də münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 2 iyul 2018-ci il**

## Prezident vəziyyətə nəzarəti öz üzərinə götürdü

İyulun 2-dən 3-nə keçən gecə hava şəraitinin kəskin dərəcədə dəyişməsi, temperaturun yüksək həddə çatması nəticəsində əhalinin elektrik enerjisindən həddən artıq istifadə etməsi ilə əlaqədar Mingəçevir İstilik Elektrik Stansiyasının (İES) yarımstansiyasında cərəyan transformatoru sıradan çıxmışdır. Yarımstansiyada dərhal təmir bərpa işlərinə başlanmışdır.

Vəziyyət Azərbaycan Respublikası Prezidentinin daim nəzarətindədir.

## FHN: Mingəçevirdəki İstilik Elektrik Stansiyasındakı yanğının söndürülməsinə 11 texnika və 50-dən çox şəxsi heyət cəlb edilib

Fövqəladə Hallar Nazirliyi (FHN) "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-də baş vermiş qəza ilə bağlı rəsmi məlumat yayıb.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, iyulun 3-də saat 00:20-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış baş verib.

Yanğın hadisəsi baş verəndən 4 dəqiqə sonra Dövlət Yanğından Mühafizə Xidmətinin ilk yanğın bölmələri yanğının söndürülməsi işlərinə başlayıb. Obyektin əhəmiyyəti nəzərə alınaraq yanğının söndürülməsi üçün "3 saylı çağırış" elan olunub, 11 yanğınsöndürmə texnikası və 50 nəfərdən çox şəxsi heyət cəlb edilib.

Açıq paylayıcı qurğular stansiyasında transformatorda baş verən yanğın saat 00:52-də, 6-cı enerji blokunun qazanxana qurğusundakı yanğın isə saat 01:10-da yanğın bölmələri tərəfindən söndürülüb. Stansiyanın turbinləri və digər qurğular yanğından mühafizə olunub.

Yanğın zamanı xəsarət alan olmayıb.

## Problemin tam həlli üçün zəruri tədbirlər davam etdirilir

Bu barədə Energetika Nazirliyi və "Azərenerji" ASC birgə operativ məlumat yayıblar.

AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, ötən gün ölkənin elektrik enerjisi sistemində baş vermiş qəzanın nəticələri aradan qaldırılsa da, onun fəsadı səbəbindən axşam saatlarında bəzi yerlərdə elektrik enerjisi məhdudiyyətlə verilir.

Həyati vacib əhəmiyyətli obyektlər elektrik enerjisi ilə artıq təmin edilib. Hazırda vəziyyət nəzarət altındadır və elektrik enerjisinin verilişi bərpa olunur.

Problemin tam həlli üçün zəruri tədbirlər davam etdirilir.

## Enerji təminatı ilə bağlı problem və məhdudiyyət tam aradan qaldırılıb



Ölkədə enerji təminatı ilə bağlı problem və məhdudiyyət tam aradan qaldırılıb. Sistem öz işini tamamilə bərpa edib. Hazırda elektrik enerjisinin dayanıqlığının möhkəmləndirilməsi işləri görülür.

Bu barədə "Azərenerji" ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Yəhya Babanlı deyib. O bildirib ki, "Şimal", "Cənub" və Sumqayıt elektrik stansiyaları öz işini bərpa edib, "Azərbaycan" İstilik Elektrik Stansiyası (İES) yenidən enerji təminatına başlayıb: "Rusiyadan paralel rejim üzrə elektrik enerjisi idxal edilir, lakin bu, sifarişli əsasla deyil".



# Bakıda Belarusun milli bayramı qeyd edilib



İyulun 3-də Belarusun Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul təşkil edib.
AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirilib.
Səfir Gennadi Axramoviç bildirib ki, 1944-cü il iyulun 3-də Minskin faşist işğalçılarından azad edilməsi Belarusun Müstəqillik Günü kimi qeyd olunur. Bu döyüşlərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 32-ci tank briqadasının, həmçinin Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin iştirak etdiklərini diqqətə çatdıran diplomat onların xatirəsinin Belarusda daim böyük hörmət və ehtiramla yad edildiyini vurğulayıb.
Azərbaycan ilə Belarus arasındakı əlaqələrdən danışan səfir prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenkonun münasibətlərin inkişafında xidmətlərini qeyd edib. Azərbaycanın Belarus üçün strateji tərəfdaş olduğunu vurğulayan diplomat əlaqələrimizin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.
Rəsmi qəbulda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov əlamətdar gün münasibətilə Belarus xalqını Azərbaycan hökuməti adından təbrik edib. Azərbaycan ilə Belarusun dost ölkələr olduğunu söyləyən Yaqub Eyyubov Prezident İlham Əliyevin Belarusa, Prezident Aleksandr Lukaşenkonun isə Azərbaycana səfərlərinin iki ölkə arasındakı əlaqələrin inkişafına təkan verdiyini bildirib. Qeyd edib ki, münasibətlərimiz bir çox sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar sahələrdə uğurla inkişaf edir.
Baş nazirin birinci müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Belarusun hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini vurğulayıb. O, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib.
Qəbulda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

# TAP: Yunanıstan və Albaniya marşrutunda boruların 85 faizi torpağa basdırılıb

Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) boru kəmərinin Yunanıstan və Albaniya marşrutunda boruların 85 faizi torpağa basdırılıb.
Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.
Bildirilir ki, TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 650 kilometrində borular xəndəyə endirilib.
Qeyd edək ki, TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan Cənub Qaz Dəhlizinin bir seqmentini təşkil edir.
TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla, ümumilikdə, 74,6 faizi icra edilib.
TAP layihəsi üzrə kapital xərcləri 4,5 milyard avrodur və may ayının sonuna bu layihəyə 3 milyard avro sərf olunub. Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə "Cənub Qaz Dəhlizi" QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə qoyulan 9,1 milyard dollar vəsaitin isə 0,7 milyard dollardan çoxu TAP layihəsinə xərclənib. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.
Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Layihənin ümumi dəyəri 4,5 milyard avro qiymətləndirilir. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə 2020-ci ilə planlaşdırılır.



TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Boru kəməri buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.
Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla, ümumilikdə, 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.
Kəmərin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahəsində çalışır. Boru kəmərinin Adriatik dənizindən keçəcək 36 düymlük hissəsi Albaniya və İtaliyanın cənub sahili arasında dəniz səviyyəsindən təxminən 820 metr dərinliyindən keçəcək. "Saipem S.p.A" şirkəti mikrotunel daxil olmaqla, Albaniya və İtaliyada tikinti işlərini, dəniz boru kəmərinin quraşdırılmasını, fiber-optik kabel təchizatını və quraşdırılmasını həyata keçirəcək. İzolyasiya edilmiş 36 düymlük borular və digər qurğular isə TAP tərəfindən təmin olunacaq. TAP-ın Adriatik dənizindən keçəcək hissəsinin inşası 2019-cu ildə başa çatdırılacaq.

# Ani boşluq, ehtiyatsızlıq ciddi problemlərə səbəb ola bilər

*"Tam və qəti şəkildə əmin olduğumu bildirmək istəyirəm ki, bu, son olacaq, bir də belə bir qəza yaşanmayacaq, təkrarlanmayacaq, təqsirkarlar məsuliyyətə cəlb ediləcək, insanlarımız nigaran qalmayacaq".*
Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə də baş vermiş qəza nəticəsində ölkənin enerji təminatında yaranmış problemlərdən narahatlığını ifadə edib:
"Təbii ki, belə hallar, hadisələr, gözlənilməz-ekstremal, əvvəlcədən proqnozlaşdırılmayan situasiyalar dünyanın hər bir yerində baş verir, yaşanır. Yəni, tək bizim ölkədə belə bir hadisə yaşanmır, bu, hər yerdə olur və ola bilər. Burada ajiotaj, hayküy yaratmağa, haqlı-haqsız iradlar səsləndirməyə də ehtiyac yoxdur. Ölkə, insanlar, cəmiyyət varsa, orada problemlər də olur və qaçılmazdır. Amma bununla belə, arxayınlığa, səhlənkarlığa da yol verməmək olmaz. Bunlar da qəbuledilən deyil. Xüsusilə də, aidiyyatı qurumlar, məsul şəxslər bu məsələdə son dərəcə diqqətli, ehtiyatlı olmalıdırlar. Ani boşluq, ehtiyatsızlıq ciddi problemlərə səbəb ola bilər. Onlar bunu mütləq nəzərə almalıdırlar. Eyni zamanda, onu da deyim ki, son illər Azərbaycanın enerji, energetika sektorunda böyük inkişaf, irəliləyişlər, müsbət tendensiyalar baş verməkdədir. Bu sahədə əldə edilən müsbət nəticələri görməmək və qiymətləndirməmək də ədalətli olmazdı. Hər şey ədalətdən başlayır və bizlər də hər bir hadisəyə məhz ədalətin gözü ilə baxmalı, qiymət verməliyik. Ancaq son hadisə onu göstərdi ki, deməli, ortada hələ həllini gözləyən məsələlər var və onlar mütləq şəkildə öz çözümünü tapmalıdır. İnanıram ki, belə də olacaq. Bunun üçün böyük imkanlar, potensial var. Və son hadisə bir daha onu göstərdi və sübut etdi ki, bu dövlətin, bu cəmiyyətin taleyi etibarlı əllərdədir. Ölkə prezidenti hər zaman olduğu kimi, yenə də öz xalqı ilə bir yerdədir və hər bir məsələyə hər kəsdən tez reaksiya verir. Bunun özü də çox önəmli məsələdir. Prezident artıq "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam da imzalayıb. Sərəncamda Dövlət Komissiyasına hadisənin baş vermə səbəblərini araşdırmaq və bu barədə Azərbaycan prezidentinə məlumat vermək, qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirmək və həyata keçirmək, görülmüş işlər haqqında dövlət başçısına mütəmadi məlumat vermək tapşırılıb. Bundan başqa, Sərəncama əsasən, Baş Prokurorluq baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirləri həyata keçirəcək".

# SOCAR sıxılmış təbii qazın satışına başlayıb




Bu barədə "SOCAR PETROLEUM" QSC məlumat yayıb.
Bildirilir ki, "SOCAR PETROLEUM" Azərbaycanın pərakəndə yanacaq satışı bazarında ilk dəfə olaraq müştərilərə qiymət baxımından daha sərfəli olan alternativ nəqliyyat yanacağı kimi sıxılmış təbii qazın - STQ (beynəlxalq miqyasda CNG, yəni "compressed natural gas") satışına başlayıb və bir kubmetri 0,45 AZN təşkil edir.
Qeyd edək ki, ənənəvi yanacaq növlərindən fərqli olaraq, STQ neft deyil, təbii qaz əsasında istehsal olunur. Bununla da təhlükəsiz və ekoloji baxımından təmiz olan STQ yanacağı ənənəvi yanacaq növlərindən həm də qiymət baxımından daha sərfəlidir. Mütəxəssislərin hesablamalarına görə, STQ ilə işləyən avtomobillərin yanacaq sərfiyyatı hər 10 min kilometr məsafə üçün 600 manat vəsaitə qənaət etməyə imkan verə bilər. STQ-yə keçid xərclərini də nəzərə alanda bu, xüsusilə, böyük avtomobil parkına sahib olan şirkətlər üçün daha aktualdır. Nəticədə, bununla daşınma məsrəflərinin ümumi xərclərdəki payını azaltmaq mümkündür. Eyni zamanda, ölkəmizin böyük həcmdə olan təbii qaz ehtiyatları STQ-nin yaxın gələcəkdə alternativ mühərrik yanacaq növü olaraq daha geniş tətbiqinə şərait yaradır.
STQ, həmçinin yanacağın ənənəvi növlərindən zəhərli tullantılarının miqdarının daha az olması ilə fərqlənir. STQ-nin istifadəsi zamanı dəm qazının miqdarı 90 faiz, karbon dioksid isə təxminən 24 faiz daha azdır. STQ-nin tərkibində azot və kükürd olmadığı üçün müvafiq təhlükəli tullantıları da yoxdur.
Azərbaycanda istifadəsinə gəlincə, Bakı şəhərində ictimai nəqliyyat fəaliyyəti göstərən "BakuBus" MMC-yə məxsus "IVECO" markalı müasir tipli nəqliyyat növü olan avtobuslar "SOCAR PETROLEUM" QSC-nin Zığ-Hövsan Terminal stansiyasında istehsal olunmuş STQ ilə işləyirlər. Zığ-Hövsan Terminal stansiyası Prezident İlham Əliyevin iştirakı ilə 2015-ci il iyun ayının 3-də istifadəyə verilib. Terminal stansiyanın tikinti-quraşdırma işlərində dünyanın ən müasir və təhlükəsiz texnologiyalarından, əsasən də, İtaliya, İsveç və Almaniya istehsalı olan avadanlıqlardan istifadə edilib.

# Dövlət büdcəsi 23 milyard 61 milyon manat təşkil edəcək

## 2018-ci ilin dövlət büdcəsi 2 milyard manatdan çox artırılır

İyunun 22-də Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.
İclasda 2018-ci ilin dövlət büdcəsinə dəyişikliklər layihəsi müzakirə edilib.
İclasda adıçəkilən komitənin üzvləri ilə yanaşı, Maliyyə, Vergilər, İqtisadiyyat nazirliklərinin təmsilçiləri də iştirak ediblər. Adıçəkilən komitənin sədri, akademik Ziyad Səmədzadə iclası açaraq bildirib ki, ölkə Prezidenti İlham Əliyevin təqdimatı ilə parlamentə bir neçə qanun layihəsi daxil olub: "Həmin layihələrdən ilki 2018-ci ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı sənəddir. Həmçinin, bununla bağlı başqa bir neçə qanun layihəsi də gündəmimizdədir. Qeyd edim ki, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə də uğurla inkişaf edib. Bu il bizim üçün çox uğurlu olub. Dünyada baş verən qlobal maliyyə-iqtisadi böhranına, qlobal risklərə baxmayaraq, Azərbaycan öz inkişaf tempini, sabitliyini qoruyub saxlaya bilib. Bütün bunlar isə nəticə etibarı ilə ölkə büdcəsində dəyişiklikləri zəruri edib. Hesab edirik ki, bu dəyişikliklər Azərbaycan iqtisadiyyatını daha da gücləndirəcək, ölkənin iqtisadi inkişaf tempinə əlavə impuls, stimul verəcək".
Maliyyə naziri Samir Şərifov isə çıxışında deyib ki, dövlət və ictimai büdcələrin gəlir və xərclərinin tarazlaşdırılması, dövlətin müdafiə və təhlükəsizliyinin daha da artırılması, ölkə əhalisinin həssas sosial qruplarının müdafiəsinin gücləndirilməsi 2018-ci ilin büdcəsinə yenidən baxılmasını zəruri edib. Onun sözlərinə görə, bundan başqa, dəqiqləşdirilmiş dövlət büdcəsində nəzərdə tutulan əlavə xərclərin maliyyə təminatı üçün xam neftin 1 barrelinin satış qiymətinin təsdiq olunmuş proqnoza (45 ABŞ dolları) nisbətən 10 ABŞ dolları artırılaraq 55 ABŞ dollarına çatdırılması nəzərdə tutulur. O deyib ki, Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin mənfəətindən 500 mln. manat vəsaitin daxil olması proqnozlaşdırılır:
"Vergilər Nazirliyinin xətti ilə qeyri-neft sektoru üzrə gəlirin dürüstləşdirilməsinə də ehtiyac yaranıb. Vergilər Nazirliyinin xətti ilə toplanan daxilolmaların məbləğinin qanunda nəzərdə tutulan büdcədən daha az toplanması ehtimal olunur. Həmin azalma 1 milyard 27 mln. manat məbləğində qiymətləndirilir. Vergilər Nazirliyinin xətti ilə 500 mln. manat əlavə daxilolma nəzərə alınarsa, vəsaitin 527 mln. manat azaldılması təklif olunur. 2018-ci ilin dövlət büdcəsinin gəlirləri 22 mlrd. 110 mln. manat proqnozlaşdırılır ki, bu da 2018-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 1 milyard 983 milyon manat, 2017-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 5 milyard 593,3 milyon manat çoxdur". Nazirin dediyinə görə, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən bəzi neft yataqları (Ümid, Qarabağ və Babək yataqları) üzrə həyata keçirilən qazma işlərinin aparılması məqsədilə dövlət dəstəyi olaraq Şirkətin nizamnamə kapitalının artırılması, idxal olunan təbii qazın "Azerenerji" Açıq Səhmdar Cəmiyyətinə müqavilə dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi üçün 300 milyon manat vəsaitin subsidiya şəklində ayrılması nəzərə tutulub. Nazir sonra qeyd edib ki, yenidən baxılma ilə bu ilin dövlət büdcəsində xərclərin 2 mlrd. 14 mln. manat artırılaraq 23 mlrd. 61 mln. manata çatdırılması nəzərdə tutulur ki, bu da təsdiq edilmiş proqnoza nisbətən 3,6%, 2017-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 5 mlrd. 466,5 mln. manat və ya 31,1% çoxdur. S.Şərifovun bildirdiyinə görə, yenidənbaxılma ilə icmal büdcənin gəlirləri 28 mln. 86,8 mln. manat olacaq ki, bu da təsdiq edilmiş göstəriciyə nisbətən 3 mlrd. 981,1 mln. manat və ya 16,5% artacaq: "İcmal büdcənin xərcləri təsdiq edilmiş göstəricilərə nisbətən 6,4% və ya 1 mlrd. 600,2 mln. manat artırılaraq 26 mlrd. 537 mln. manat səviyyəsində proqnozlaşdırılır. Yenidənbaxılma ilə icmal büdcə kəsirlə deyil, 1 mlrd. 549,8 mln. manat profisitlə proqnozlaşdırılır".
Nazirin çıxışından sonra komitə sədri Z.Səmədzadə bildirib ki, Azərbaycanın dövlət büdcəsinin parametrləri yaxşılaşıb. Komitə sədrinin bildirdiyinə görə, bu da imkan verəcək ki, Azərbaycanın iqtisadi inkişafı bundan sonra daha da sürətlənsin.
Adıçəkilən komitənin üzvü Vahid Əhmədov deyib ki, son 4 ayın iqtisadi göstəricilərinə baxarkən, inkişafın baş verdiyi görünür: müsbət saldo yaranıb, ümumi daxili məhsulun (ÜDM) həcmi 1,2 faiz artıb və bunlar yaxşı nəticələrdir. Onun sözlərinə görə, ancaq dövlət büdcəsinə dəyişikliklərdə Dövlət Neft Şirkətinə 1 milyard manatdan artıq vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da düzgün deyil: "Axı, biz özümüz neft-qaz istehsal və ixrac edən ölkəyik. Amma kompensayaya üçün 1 milyard manat vəsitin ayrılması nəzərdə tutulur. Bunu heç cür anlamaq olmur". Millət vəkili, həmçinin yerlərdə, bölgələrdə problemlərin yaşandığını və bu problemlərin həlli üçün maliyyə vəsaitinin ayrılmasının daha zəruri olduğunu söyləyib: "Çünki yerlərdə bizlər oluruq. İnsanlar bizim üstümüzə gəlir. Yerlərdə elə problemlər var ki, həm insanlarımızı, həm də onların təmsilçiləri olaraq bizləri narahat edir. Ona görə də bu problemlərin həlli üçün maliyyə ayrılması daha düzgün olardı".
Millət vəkili Əli Məsimli çıxışında deyib ki, büdcədə tikinti məsələləri ilə bağlı vəsaitin həcminin az qala 22 faiz təşkil etməsi düzgün deyil. O bildirib ki, bu, hardasa 5 milyard manat təşkil edir ki, onun da xərclənməsinə nəzarət çətinləşir: "Çünki bu nəticə etibarı ilə korrupsiyanın baş verməsinə şərait yaradır". Millət vəkili,




eyni zamanda, dövlət zəmanəti ilə götürülən vəsaitlərin, kreditlərin taleyi məsələsinə toxunub: "Bu məsələdə də çox ciddi problemlər var. Çünki bir çox qurumlar bu məsələdə şəffaflığa əməl etmirlər, həmin vəsaitləri təyinatı üzrə sərf etmirlər. Ona görə də bu məsələnin ciddi təhlili lazımdır".
Ə.Məsimli bununla yanaşı, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqlarının artırılmasını təklif edib: "Bu il bir dəfə bu istiqamətdə artım baş verib. Ancaq yaxşı olardı ki, ən azı Cümhuriyyətimizin 100 illiyi ilə bağlı bir dəfə də artım olsun. Çünki büdcədən maliyyələşən təşkilatlarda işləyən insanlarımızın əməkhaqları çox azdır".
Z.Səmədzadə də öz növbəsində büdcəyə dəyişikliklərlə bağlı müzakirələrin sonunda bildirib ki, 2000-ci ildə Azərbaycanın büdcəsi cəmi 1 milyard manat idi: "İndi isə büdcəni bir ilin içində yenidən artırırıq, yəni 2 miyard manatlıq dəyişikliklər nəzərdə tutulur. Bu, ölkənin haradan hara gəldiyini, inkişaf dinamikasını göstərir. Bu, onu göstərir ki, Azərbaycan bu illər ərzində nə qədər inkişaf edib, iqtisadiyyatımızda nə qədər böyük uğura nail olunub".
Müzakirələrin sonunda dəyişikliklər layihəsi iyunun 29-da keçiriləcək növbədənkənar plenar iclasa tövsiyə olunub.

**Kamil HƏMZƏOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# BU GÜN ATILAN HƏR BİR MÜSBƏT ADDIM SABAH ÜÇÜN BOLLUQ VƏ FİRAVANLIQ DEMƏKDİR

Aqrar sahədən danışarkən keçən əsrin 90-cı illərinin əvvəlləri yada düşür. O vaxtlar məhsul istehsalının həcmi 58 faiz aşağı düşmüş, aqrar-sənaye kompleksinin maddi-texniki bazası dağılıb sıradan çıxmışdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra tənəzzülün qarşısı alınmaqla yanaşı, aqrar bölmədə köklü islahatlar həyata keçirildi, kənd təsərrüfatının bazar prinsiplərinə keçidini təmin edən hüquqi-normativ baza yaradıldı. O illərdə aqrar sahə ilə əlaqədar 100-dən artıq normativ akt qəbul olundu. Həyata keçirilən çevik siyasət nəticəsində respublikanın kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxarıldı. Cənab Prezident İlham Əliyev tərəfindən 2004-cü ildən başlayaraq uğurla reallaşdırılan regional Dövlət Proqramları kənd təsərrüfatının inkişafında keyfiyyətcə yeni mərhələ açdı. Təsərrüfat subyektlərinə verilən subsidiyalar, güzəştli kreditlər, texnika və avadanlıqlar, gübrə və sürtgü yağları və digər yardımlar bölgələrdə torpağa, əkin-səpinə doğru böyük qayıdış yaratdı. Bütün bunlar nəticəsində son iki il ərzində pambıq istehsalı səkkiz dəfə artıb. 2015-ci ildə 36 min ton, 2016-cı ildə 89 min ton, 2017-ci ildə isə 207 min ton pambıq istehsal olunub, cari ildə pambıq istehsalının 300 min tonu ötüb keçməsi proqnozlaşdırılır.
Bu müddət ərzində Zaqatala, Balakən, Xaçmaz, Qax, Quba, Qusar, İsmayıllı, Qəbələ, Şabran, Oğuz və Şəki rayonlarında 10,7 min hektar sahədə yeni fındıq bağları salınıb. Bölgələrdə ixtisaslaşma və diversifikasiya prosesləri dərinləşib. İnkişaf və yüksəliş dalğası Şəki rayonundan da yan keçməyib.
Şəki Kənd Təsərrüfatı İdarəsindən verilən məlumata görə, 2017-ci ilin payızında 2018-ci ilin məhsulu üçün 67,21 min hektarda dənli bitkilərin əkini aparılıb. Sahələrə 1656 ton azot gübrəsi, 241 kq toz və 5679 litr maye halında herbisit səpilib.
Cari ildə rayonun 14 inzibati ərazi dairəsində 1980 nəfər təsərrüfat subyekti tərəfindən 860 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur. Bu məqsədlə istehsalçılarla «İNTER TOBOCCO» MMC arasında müqavilə bağlanmışdır. Tütün şitilinə olan tələbatın ödənilməsi məqsədilə 358880 kvadratmetr sahədə istixana salınmış, «Aqrolizinq» ASC-nin Şəki nümayəndəliyinin anbarında tələbata uyğun miqdarda mineral gübrələr tədarük olunmuşdur. Şitillərin sahələrə köçürülməsinə başlanılıb.
Cari ildə rayonun 21 ərazi dairəsi üzrə 185 nəfər kümçü tərəfindən barama toxumuna, ipəkqurduna və tut çətilinə olan tələbat barədə Kənd Təsərrüfatı Nazirliyinə müraciətlər göndərilmişdir. Rayon ərazisində bir neçə kəndin bələdiyyə torpaqlarından «Şəki İpək» ASC-yə uzunmüddətli icarəyə verilmiş torpaqlarda tut bağları mövcuddur. Belə ki, Şəki Bələdiyyəsinin «Yemçilik» adlanan ərazisində 40 və 25 hektar olmaqla iki hissədən ibarət tut bağları vardır. Rayonda 238 hektar belə bağlar mövcuddur ki, bunun da 150 hektarı toxmacar (köhnə) bağlardır. Normal şəkildə becərilən tut bağlarının hər hektarından yığılan yarpaq kütləsi ilə 4-5 qutu ipəkqurdunun yemlənməsi mümkündür. Bundan başqa, Çin Xalq Respublikasından gətirilmiş 25000 ədəd tut tingi rayonun 5 inzibati ərazi dairəsinə paylanmış və sahələrə əkilmişdir.
Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli «Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər Dövlət Proqramı»nın həyata keçirilməsi qarşıya yeni vəzifələr qoymuşdur. Bu vəzifələrə respublikada barama assosiasiyasının yaradılması, yerli ting və çətil təsərrüfatlarının yaradılması, tut bağlarının suvarma təchizatının yaxşılaşdırılması, barama istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinə subsidiya və yardımların davamlı olaraq verilməsi kimi kompleks məsələlər daxildir.
Məhz buna görə də rayonda baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsi məqsədi ilə mövcud tut tinglərinin əkildiyi sahələrdə aqrotexniki qulluq işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün bağlar kümçülər arasında bölüşdürülmüş, müvafiq suvarma tədbirləri görülmüş, iri əkin sahələrində kümxanalar tikilməsi nəzərdə tutulmuş və bu tədbirlərin yüksək şəkildə aparılması üçün barama istehsalçılarının iştirakı ilə seminar və treninqlər keçirilmişdir. Bundan sonra da barama istehsalının təşviqi ilə əlaqədar maarifləndirmə tədbirləri davam etdiriləcək.



Şəki rayonunda kənd təsərrüfatının digər sahələri, o cümlədən çəltikçilik, taxılçılıq, paxlalı bitkilərin istehsalı və heyvandarlıq sahəsində də nəzərəçarpacaq irəliləyişlər baş vermişdir. Respublikada aqrar bölmədə gedən diversifikasiya prosesləri fonunda fındıqçılıq və ipəkçilik ön mövqeyə çıxmışdır.
Hər bir bölgədə özünü göstərən dinamik inkişafdan Qəbələ rayonuna da pay düşmüşdür. Qeyri-neft sektorunun və özəl bölmənin inkişafına göstərilən hərtərəfli dövlət dəstəyi füsunkar gözəlliyi, əsrarəngiz təbiəti olan Qəbələ rayonunu cəlbedici, qonaqlı-qaralı turizm diyarına çevirmişdir.
Turizmlə bərabər, son illər burada kənd təsərrüfatı sahəsində də ciddi uğurlar qazanılmışdır. Artıq 14 ildir ki, rayonda bu sahədə müsbət dinamika qorunub saxlanılır. Başqa rayonlarda olduğu kimi, Qəbələdə də təsərrüfat işlərinə maraq artıb. Tarlalarda əsl coşqu yaşanır. Konkret rəqəmlərə müraciət edək. Elə bitkiçilikdən başlayaq. Son illər rayonda kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda heyvandarlığın inkişafı nəzərə alınaraq yemə olan tələbatı ödəmək məqsədilə dəyişiklik aparılmışdır. Başqa sözlə, taxıl sahələri 1500 hektara qədər azaldılaraq, həmin sahələrdə silosluq qarğıdalı, vələmir, yem noxudu, yem çuğunduru, yonca, bir illik otlar və s. əkilmişdir.
2017-ci ildə rayonda 67,92 min ton taxıl istehsal olunmuş, hər hektarın orta məhsuldarlığı 32,1 sentner təşkil etmişdir. Keçən il 12260 ton kartof, 7612 ton tərəvəz, 3065 ton qarğıdalı, 116 ton bostan məhsulları, 13527 ton meyvə, 2065 ton üzüm istehsal olunmuşdur. Rayon sahibkarları bir sıra ixrac yönümlü məhsulların istehsalında da artıma nail olmuşlar. Fındıqçılıq və tütünçülük bu sırada mühüm yer tutur. 2016-cı ilin payızında sözügedən sahələrin inkişafında ciddi addımlar atılmışdır. Ötən ilin sonuna qədər 2 min hektar fındıq bağının salınması planlaşdırılsa da, yekunda nəzərdə tutulduğundan 17 hektar çox sahədə fındıq kolu əkilmişdir. 2018-ci ilin birinci rübündə daha 120 hektar yeni fındıq bağları əkilmişdir. Qəbələdə, həmçinin kənd təsərrüfatı yönümlü sənaye müəssisələri də fəaliyyət göstərir. Ötən il tütünçülər və baramaçılar da layiqli nəticələr əldə etmişlər. Belə ki, 70 hektarda tütün əkən qəbələlilər 90 ton quru tütün yarpağı tədarük etmişlər. Bu il tütün sahələri artırılaraq 75 hektara çatdırılmışdır.
Kümçülərin işi də diqqəti çəkir. 260 qutu ipəkqurdu rayonun 101 kümçüsü arasında paylanmış, bütün aqrotexniki əməliyyatlar keyfiyyətlə yerinə yetirilmiş, artıq barama yığımına hazırlıq görülür. Bu il 10,4 ton barama tədarükü gözlənilir.
Rayonda heyvandarlığın inkişafı üçün güclü potensial var. Hazırda Qəbələdə 46,3 min başdan çox mal-qara, qoyun və keçi bəslənilir. Ən diqqətçəkən məqam budur ki, rayonda, əsasən, yüksək damazlıq mal-qaraya üstünlük verilir. Bu isə heyvanların baş sayının azalmasına baxmayaraq, məhsul istehsalının artmasına imkan verir. İlin birinci üç ayında ötən ilin eyni dövrünə nisbətən diri şəkildə ət istehsalı 7 ton, süd istehsalı 351 ton, yumurta istehsalı 2,1 milyon ədəd artmışdır.
Qəbələdə 2 müasir tipli heyvandarlıq kompleksi, 4 kiçikhəcmli heyvandarlıq təsərrüfatları və xeyli sayda ailə-fermer təsərrüfatları fəaliyyət göstərir. Bu isə rayon əhalisinin ətə və südə olan tələbatının ödənilməsinə imkan verir. Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, müasir tipli damazlıq təsərrüfatlarının yaradılması prosesi davam etdirilir. Məsələn, «Aqro-Kompleks Qəbələ» MMC-də 1685 baş Simmental cinsindən olan mal-qara saxlanılır. Burada 650 baş ana mal var, hər inəkdən orta hesabla 21 kq süd sağılır, sutka ərzində 11 min kiloqram süd istehsal olunur. Heyvandarlıq-Südçülük Kompleksində isə 1980 baş Holştin friz cinsi bəslənilir ki, burada hər inəkdən 30 kq süd sağılır, sutkalıq istehsal isə 22 min kiloqram təşkil edir.
«Aqrolizinq» ASC-nin xətti ilə ayrı-ayrı fiziki şəxslərə satılan cins heyvanlar da yüksək məhsuldarlığı ilə fərqlənir. Belə ki, bu gün hər cins inəkdən sutkada 12-15 kq süd sağan fermerlərin sayı az deyil. Ən önəmli cəhət budur ki, cins malların alınmasına və bəslənməsinə hər il maraq artır.
Son vaxtlar Qəbələ rayonunda iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının ixtisaslaşması və şaxələnməsi meyilləri güclənir. Bu isə sonucda məhsul istehsalının və emal sənayesinin genişlənməsinə, ixrac potensialının artmasına gətirib çıxarır. Bu gün atılan hər bir müsbət addım sabah üçün bolluq, bar-bərəkət və firavanlıq deməkdir.

**Zülfü İLYASOV,
bölgə müxbiri**

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# PARİS SÜLH KONFRANSI

**PARİS SÜLH KONFRANSI** (1919-20) - Birinci Dünya müharibəsində (1914-18) qalib gəlmiş dövlətlərin məğlub dövlətlərlə sülh müqavilələrini hazırlamaq və bağlamaq üçün çağırdıqları beynəlxalq konfrans. Fasilələrlə 1919-cu il yanvarın 18-dən 1920-ci il yanvarın 21-dək davam etmişdir. Dövrün ən tanınmış dövlət xadimləri, siyasətçiləri, diplomatları, hərbçiləri konfransın rəhbər heyətində və işçi qruplarında təmsil olunmuşdular. Fransanın baş naziri J.Klemanso konfransın prezidenti, ABŞ-ın dövlət katibi R.Lansinq, Böyük Britaniyanın baş naziri D.Lloyd Corc, Orlando (İtaliya) və Sayandzi (Yaponiya) vitse-prezidentləri seçildilər. Birinci Dünya müharibəsindən sonra dövrün ən mühüm məsələləri, müharibədən sonrakı yenidənqurma, məğlub dövlətlərlə sülh müqavilələrinin bağlanması, o zaman deyildiyi kimi, «rus məsələsi» və digər məsələlər konfransın gündəliyinə çıxarılmışdı.

Dağılmış Rusiya imperiyasının ərazisində yeni yaranmış müstəqil milli dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyəti də dünya dövlətləri tərəfindən tanınmaq, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, respublikanın suverenliyini və ərazi bütövlüyünü təmin etmək baxımından Paris Sülh Konfransına böyük ümid bəsləyirdi.

Azərbaycan hökumətinin nümayəndələri Qafqazdakı müttəfiq qoşunlarının komandanı, general V.Tomsonla danışıqlar zamanı Azərbaycanın beynəlxalq sülh konfransında iştirakına təminat almışdılar. Britaniya hökumətinin Bakıya gələn rəsmi nümayəndəsi general Corc Miln də öz bəyanatlarında bunu təsdiqləmişdi.

Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşov sülh konfransına gedəcək heyətin başçısı, Məmməd Həsən Hacınski isə onun müavini təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü - Əhməd Ağayev və Əkbər ağa Şeyxülislamov daxil idi. Mir Yaqub Mehdiyev, Ceyhun Hacıbəyli və Məhəmməd Məhərrəmovdan ibarət məsləhətçilər müəyyən olundu.

1919-cu il yanvarın 4-də Bakıdan yola düşən nümayəndə heyəti Tiflisdə və Batumda bir sıra ciddi görüşlərdən sonra yanvarın 20-də İstanbula çatdı. Nümayəndə heyəti ayın 22-də burada Ə.Topçubaşovun sədrliyi ilə ilk iclasını keçirdi və iş bölgüsü apardı. İclasda nümayəndə heyətinin tərkibinə texniki işçilər - ekspertlər (Əli bəy Hüseynzadə və V.Marçevski), katiblər (Səffət Məlikov və Ələkbər bəy Topçubaşov), tərcüməçilər - A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), H.Məmmədov (fransız və türk dilləri), sədrin şəxsi katibi (Rəşid bəy Topçubaşov) də qatıldılar.

Lakin Azərbaycan nümayəndələri elə ilk gündən Parisə getməkdə ciddi çətinliklərlə üzləşdilər. Nümayəndə heyətinin iki üzvü - Ə.Hüseynzadə və Ə.Ağayev İstanbulda müttəfiqlər tərəfindən həbs edildi. Ə.Hüseynzadəni həbsdən azad etdirmək mümkün olsa da, Parisə getməyə viza verilmədi. Ə.Ağayev isə Malta adasına sürgün olundu.

Azərbaycan nümayəndə heyəti Parisə getmək üçün 3 ay İstanbulda viza gözləməli oldu. Bu müddətdə İstanbulda böyük dövlətlərin ali komissarlarına, Sülh konfransının sədrinə və həmsədrlərinə, digər rəsmi orqanlara müraciət edildi. Nəhayət, Azərbaycan nümayəndələri aprelin 22-də İstanbuldan Parisə yola düşdülər.

Parisə gəldikdən sonra nümayəndə heyətinin ilk mühüm işi *«Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu»* adlı sənədi konfransın keçirildiyi ingilis və fransız dillərində hazırlayıb nəşr etdirmək oldu. 50 səhifədən və on dörd bölmədən ibarət olan memorandumda Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, iqtisadiyyatı, müasir durumu haqqında ən ümumi məlumatlar toplanmışdı.

Nümayəndə heyəti may ayı ərzində Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər keçirdi. Mayın 23-də ingilis nümayəndə heyətinin üzvü, ser Luiz Malletlə görüş oldu. Ayın 28-də - Cümhuriyyətin birinci ildönümü günü ABŞ Prezidenti V.Vilson Ə.Topçubaşov başda olmaqla, Azərbaycan nümayəndələrini qəbul etdi. Ə.Topçubaşov ABŞ prezidentinə Azərbaycan haqqında geniş məlumat verərək, bu barədə müxtəlif arayışları, ölkənin sülh konfransından tələblərini ona təqdim etdi. **Altı bənddən ibarət olan bu sənəddə Azərbaycanın müstəqilliyinin tanınması; Vilson prinsiplərinin Azərbaycana da şamil edilməsi; Azərbaycan nümayəndələrinin sülh konfransına buraxılması; Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması; ABŞ hərbi departamentliyinin Azərbaycana hərbi yardım göstərməsi; ABŞ-la Azərbaycan arasında diplomatik münasibətlərin qurulması xahiş edilirdi. Danışıqlar zamanı Qafqaza xüsusi Amerika missiyası göndərmək barədə razıhq əldə edildi. Lakin bu missiya Bakıya xeyli gec, 1919-cu ilin oktyabrında gəlib çatdı. Azərbaycan nümayəndələrinin Prezident V. Vilson tərəfindən qəbul edilməsi əhəmiyyətli hadisə idi.**

Paris Sülh Konfransının Ali Şurası may ayı ərzində «rus məsələsi»ni iki dəfə müzakirə edərək, 1919-cu il 26 may və 12 iyun tarixli notaları ilə admiral Kolçak hökumətini ümumrusiya hökuməti kimi tanıdı. Parisə gəlmiş yeni dövlətlərin nümayəndələri Kolçak hökumətinin tanınmasını etirazla qarşıladı. İyunun 18-də Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belarusiya və Ukrayna nümayəndələri tərəfindən imzalanmış etiraz bəyannaməsi ABŞ Prezidenti V.Vilsona təqdim edildi.

Parisdə olan Qafqaz təmsilçiləri (Azərbaycan, Gürcüstan, Dağlılar Respublikası) iyunun 15 və 18-də Azərbaycan nümayəndə heyətinin yerləşdiyi «Klaric» mehmanxanasında Denikin təhlükəsini müzakirə edib, iyunun 23-də sülh konfransına etiraz notası verdilər.

Xaricdəki rus siyasi mühacirlərinin fəallaşması və yeni yaranmış dövlətlərə qarşı mürtəce mövqe tutması, şimaldan Denikin təhlükəsinin artması avqustun 19 və 26-da Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin sülh konfransının sədrinə, Britaniya xarici işlər naziri A.Balfura, oktyabrın 9-da yenidən konfransın sədrinə məktubla müraciəti ilə nəticələndi. İngilis komandanlığının Qafqazdan getmək ərəfəsində Xəzər donanmasının bir hissəsini Denikinə verməsinə etiraz əlaməti olaraq Ə.Topçubaşov xarici işlər naziri A.Balfura xüsusi məktubla müraciət etdi.

**Azərbaycan nümayəndə heyətinin qarşısında duran mühüm məsələlərdən biri ermənilərin qondarma «Böyük Ermənistan» iddialarına qarşı mübarizə idi. Ermənilər özlərini «böyük müttəfiqlərin kiçik müttəfiqi» hesab edib, Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər «Böyük Ermənistan» yaratmaq xülyasına düşmüşdülər. Onlar nəinki Anadolunun 6 vilayətinə, eyni zamanda, Kilikiyaya, hətta Cənubi Azərbaycanın bir hissəsinə də iddia edirdilər. Paris, London, xüsusilə Vaşinqton onların əsassız iddialarını müdafiə edirdi. Ermənilərin sülh konfransına təqdim etdiyi tələblər ucsuz-bucaqsız ərazilərlə yanaşı, böyük məbləğdə təzminat ödənilməsini də nəzərdə tuturdu. Azərbaycan nümayəndə heyəti bu tələblərlə bağlı xüsusi bəyanatla çıxış etdi. 1919-cu ilin iyununda Azərbaycan nümayəndələri İrəvan Müsəlman Milli Şurasının İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında hazırladığı məlumatı Avropa və Amerika dövlətlərinin Parisdəki nümayəndələrinə çatdırdı. Məlumatda qeyd edilirdi ki, mübahisəli ərazilər nəzərə alınmadan, azərbaycanlılar Ermənistan əhalisinin yarısını təşkil etsələr də, ən adi insan hüquqlarından məhrumdurlar.**



*Azərbaycan nümayəndə heyəti Parisdə. Soldan Abbas bəy Atamalıbəyov, Məmməd bəy Məhərrəmov, Əlimərdan bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Mir Yaqub Mehdiyev. (1919)*

**1919-cu ilin yayında Azərbaycanın hökumətinin qətiyyəti nəticəsində Azərbaycan Cümhuriyyətinin Qarabağda suveren hüquqları bərpa edildikdən sonra Ə.Topçubaşovun Paris Sülh Konfransının sədrinə təqdim etdiyi məlumatda göstərilirdi ki, «Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökumətinə tabe olması haqqında qətnamə qəbul etmişlər».**

Paris Sülh Konfransında müzakirə edilən məsələlərdən biri də mandatlıq məsələsi idi. Vilson layihəsi əsasında təşkil edilən Millətlər Cəmiyyəti nizamnaməsinin 22-ci maddəsi mandatlıq sisteminin təsis olunması üçün hüquqi baza yaradırdı. Azərbaycanın mandatlıq sisteminə marağı xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. Xüsusilə, Azərbaycana formaca fərqli, mahiyyətcə isə eyni münasibət böyük dövlətlərin simasında himayəçi axtarışını zərurətə çevirmişdi. 1919-cu ilin iyul-avqust aylarında Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının Parisdəki nümayəndələrinin Qafqazda Britaniya və İtaliya himayədarlığının perspektivləri ilə bağlı keçirdikləri müzakirələrdə Azərbaycan nümayəndələri Britaniya təhlükəsizlik sisteminə daxil olmağa daha çox üstünlük verirdilər. Lakin avqustun 25-də ingilis qoşunları Azərbaycanı tərk etdikdən sonra oriyentasiya məsələsi yenidən gündəliyə gəldi.

Qafqaz və Azərbaycanın mandatına maraq göstərən dövlətlərdən biri də ABŞ idi. 1919-cu il iyulun 5-də amerikalı polkovnik Haskel Onlar Şurasının qərarı ilə Ermənistana ali komissar təsdiq edildi (bax, ***«Haskel layihələri»***). Avqustun 28-də Haskel Bakıya gələrək, baş nazir Nəsib bəy Yusifbəyli ilə danışıqlarda Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etməklə yanaşı, Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaratmaq ideyasını da irəli sürdü (bax, ***Naxçıvanda Amerika general-qubernatorluğu***). Bu ideya Azərbaycan hökuməti, yerli əhali, son nəticədə, sülh konfransı tərəfindən qəbul olunmadı. Parisdə olan Ə.Topçubaşov bu məsələ ilə bağlı sülh konfransının sədrinə etiraz notası təqdim etdi.

1919-cu ilin payızında Versalda olan Azərbaycan nümayəndələri Avropanın müxtəlif ölkələrində təbliğat işlərini xeyli genişləndirdilər. ABŞ-da lobbi qrupunun yaradılması istiqamətində ilk addımlar atıldı. Ağqvardiyaçı rus generallarının məğlubiyyətindən sonra, 1919-cu ilin payızından başlayaraq Versal Ali Şurasının, xüsusilə B.Britaniyanın Qafqaza, ilk növbədə Azərbaycana marağı artırdı. Britaniyanın baş naziri 1919-cu ilin noyabrında parlamentin icmalar palatasındakı çıxışında Azərbaycanın və Gürcüstanın tanınması ideyasını irəli sürdü. 1919-cu ilin noyabr-dekabrında beynəlxalq şəraitin yeni yaranmış dövlətlərin xeyrinə dəyişdiyini nəzərə alaraq, Azərbaycan nümayəndələri respublikanın Millətlər Cəmiyyətinə qəbul olunması barədə memorandum hazırlayıb cəmiyyətin katibliyinə təqdim etdilər.

1920-ci ilin yanvarında Qafqazda bolşevik təhlükəsinin reallaşması Antanta dövlətlərini ciddi düşünməyə vadar etdi. Azərbaycanın müstəqilliyinin tanınması təxirəsalınmaz vəzifəyə çevrildi. Bu məqsədlə B.Britaniyanın təşəbbüsü ilə yanvarın 10-da Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağrıldı. **Yanvarın 11-də Versal Ali Şurasının iclasında B.Britaniyanın xarici işlər naziri C.Kerzonun təklifi ilə Ali Şura Azərbaycanın müstəqilliyini de-fakto tanıdı (bax, *Müstəqilliyin de-fakto tanınması*). Ali Şuranın qərarında deyilirdi: «Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar».**

Yanvarın 15-də Azərbaycanın Paris Sülh Konfransı tərəfindən de-fakto tanınması barədə rəsmi qərar Ə.Topçubaşova təqdim edildi. Həmin gün Azərbaycana hərbi yardım göstərmək məsələsi müzakirə olundu.

Yanvarın 17-də Azərbaycan nümayəndələrinin iştirakı ilə «Klaric» mehmanxanasında feldmarşal H.Vilsonun sədrliyi ilə hərbi ekspertlərin müşavirəsi oldu. Müşavirə dövlət başçılarının yanvarın 19-da keçiriləcək iclasına təkliflər hazırlamalı idi. Yanvarın 19-da Ali Şuranın iclasında müttəfiqlərin Hərbi Ekspertlər Şurasının məruzəsi ilə çıxış edən marşal F.Foş müttəfiqlərin bir neçə diviziyasının Qafqaza göndərilməsinin zəruri olduğunu bildirdi. Lloyd Corc hərbi ekspertlərin təklifinə etiraz edərək, Azərbaycana silah və hərbi sursat verilməsi ilə yardım göstərilməsinə tərəfdar oldu. Bununla da sülh konfransı öz işini başa çatdırdı.

***Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin siyasi cəhətdən tanınması Ə.Topçubaşov başda olmaqla, Azərbaycan nümayəndə heyətinin, bütövlükdə, Cümhuriyyət hökumətinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi. Azərbaycan Versal Ali Şurasının tanıdığı ilk türk və müsəlman respublikası idi.***

## BOEMDA və "Caspian European Club" əməkdaşlığı genişləndirir

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABOEMDA) və "Caspian European Club" əməkdaşlığı genişləndirir.

Klubdan bildirilib ki, ABOEMDA-nın sədri Akim Bədəlovun "Caspian European Club"un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanları, "Caspian European Club"un fəaliyyəti, alternativ və bərpaolunan enerji mənbələri sahəsinin inkişafının əsas tərəfləri müzakirə olunub.

Mövzulardan biri ayrı-ayrı yaşayış məntəqələrinin, həmçinin böyük şəhərlərin, sosial obyektlərin (xəstəxana, məktəb), ictimai nəqliyyat, metropoliten və strateji əhəmiyyətli obyektlərin alternativ və bərpaolunan enerji mənbələrinə keçid imkanlarının müzakirəsi olub. Mövzu qanun, hökumət, eləcə də xarici investisiya və texnologiyanın bu sahəyə cəlb edilməsi üçün münbit investisiya mühitinin yaradılması nöqteyi-nəzərindən özəl biznes səviyyəsində müzakirə olunacaq.

Analoji qurumlarla bu formatda görüşlər davam etdiriləcək. Gələn həftə dövlət və özəl şirkət rəhbər və nümayəndələrinin, yerli və xarici ekspertlərin iştirakı ilə baş tutacaq ekspert şurasının iclası çərçivəsində xüsusi hesabat hazırlanacaq.

T.Əliyev göstərilən diqqətə və "Caspian European Club" ilə əməkdaşlığa görə ABOEMDA-ya minnətdarlığını bildirib. O, ikitərəfli əməkdaşlığın alternativ və bərpaolunan enerji mənbələri sahəsindəki problemlərin həllinə kömək edəcəyinə, "Caspian European Club"un isə öz növbəsində bizneslə dövlət agentliyi arasında aktiv dialoqun davam etməsi üçün təkliflər üzrə öz səylərini əsirgəməyəcəyinə ümid bəslədiyini ifadə edib.

Görüşün yekununda daimi işçi qrupun yaradılması barədə razılıq əldə olunub. İşçi qrup çərçivəsində "Caspian European Club", "Caspian American Club" və "Caspian European Club"un üzv şirkətlərinin alternativ və bərpaolunan enerji mənbələri sahəsindəki bütün problem, xahiş və təklifləri müzakirə olunacaq.

Sıralarında dünyanın 70 ölkəsindən 5 mindən çox şirkət və təşkilatı birləşdirən "Caspian European Club" 2002-ci ilin iyununda Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən nəhəng neft-qaz şirkətlərinin dəstəyi və "Caspian Energy International Media Group"un fəal iştirakı ilə yaradılıb. 2016-cı il dekabrın 24-də "Caspian American Club", 2018-ci il yanvarın 26-da "Caspian Asian Club" təsis olunub. Hər iki təşkilat 2 il ərzində "Caspian European Club"un idarə heyətinin üzvləri tərəfindən idarə olunacaq. "Caspian European Club"a daxil olan bütün şirkətlər avtomatik qaydada "Caspian American Club" və "Caspian Asian Club"un, "Caspian American Club" və "Caspian Asian Club"a daxil olanlar isə "Caspian European Club"un üzvü hesab olunurlar. "Caspian European Club"un sədri Azərbaycan Prezidentidir.

## Avropa Yenidənqurma və İnkişaf Bankı TAP layihəsi üçün böyük məbləğdə kredit təsdiq etdi

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Direktorlar Şurası Transadriatik qaz kəməri layihəsinə (TAP) 500 milyon avro həcmində krediti təsdiq edib.

Qeyd edək ki, Avropa İttifaqı üçün strateji əhəmiyyətli layihə olan TAP artıq Avropa İnvestisiya Bankından 1,5 milyard avro həcmində kredit cəlb edib. Bank bu kreditin ayrılmasına 2018-ci ilin fevralında razılıq verib.

Qeyd edək ki, mayın 29-da Bakıda "Cənub Qaz Dəhlizi"nin birinci mərhələsinin rəsmi açılış mərasimi keçirilib.




Cənub Qaz Dəhlizinə "Şahdəniz-2" qaz yatağı, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri daxildir. 1,2 trilyon təbii qaz ehtiyatına malik "Şahdəniz" Azərbaycanın ən iri qaz-kondensat yatağı və Cənub Qaz Dəhlizinin hasilat mənbəyidir. Cənubi Qafqaz Boru Kəmərinin uzunluğu 691 km-dir. Gürcüstan sərhədindəki Türkgözü kəndində TANAP-a birləşən boru xəttinin 443 km-i Azərbaycandan, 248 km-i Gürcüstandan keçir. Layihə çərçivəsində Cənubi Qafqaz Boru Kəmərinin ötürücülük gücü ildə 7 milyard kubmetrdən 23 milyard kubmetrə qaldırılıb.

Cənub Qaz Dəhlizinin Avropa hissəsini TAP boru kəməri təşkil edir. 878 km uzunluğa malik bu kəmər Türkiyə-Yunanıstan sərhədində TANAP-a birləşir. Boru kəməri Avropada Yunanıstan, Albaniya və Adriatik dənizinin altından keçərək, İtaliyanın cənubunda bitir. 2020-ci ildə istifadəyə verilməsi planlaşdırılan TAP-ın ilkin ötürücülük qabiliyyəti 10 milyard kubmetr olacaq. Gələcəkdə əlavə kompressorlar vasitəsilə bu həcmin 20 milyard kubmetrə çatdırılması gözlənilir.

# AtaBank-ın “Gələcəyimizi indidən düşünək” sosial layihəsində növbəti addımı

“AtaBank” ASC-nin dəstəyi ilə təşkil edilmiş “Gələcəyimizi indidən düşünək” layihəsi çərçivəsində 11 saylı internat məktəbinin şagirdləri bankın Azadlıq pr. 124 ünvanında yerləşən “Dostluq” filialına dəvət edilib.

Keçirilən görüş zamanı “AtaBank”-ın Marketinq və Kommunikasiyalar Departamentinin əməkdaşları şagirdləri ümumi bank işi ilə tanış edərək, onlara bankın müxtəlif şöbə və departamentlərinin gördüyü işlər, bankın müştərilərinə göstərdiyi xidmətlər barəsində geniş məlumat veriblər.

Departamentin direktoru Oruc İbrahimov şagirdlərlə görüş keçirərək, onları maraqlandıran suallara cavab verib, təhsilin insan həyatında oynadığı böyük roldan, bütün çətinliklərə baxmayaraq, hər bir insanın öz üzərində daim işləyərək nail ola biləcəyi hədəflərdən danışıb və bir neçə ildən sonra bank sahəsində işləmək arzusunda olan şagirdlərlə eyni bankda çalışacağına inandığını qeyd edib. Oruc İbrahimov AtaBank-ın daim sosial layihələrə önəm verdiyini, bu kimi layihələrə dəstək olmağından qürur duyduğunu xüsusi ilə vurğulayıb.

Qeyd etmək istərdik ki, layihə çərçivəsində iyul ayının əvvəlində yekun tədbir keçiriləcək və burada 11 nömrəli İnteqrasiya Təlimli İnternat Məktəbinin şagirdləri ilə birgə hazırlanan qısametrajlı filmin nümayişi olacaq.



# May ayı üzrə bank sektorunun icmal göstəriciləri açıqlanıb

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) may ayı üzrə bank sektorunun icmal göstəricilərini açıqlayıb.

MBNP-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 31-nə Azərbaycanda fəaliyyət göstərən bankların cəmi aktivləri 27 559 milyon manat, kredit portfeli 11 552 milyon manat, cəmi öhdəlikləri isə 23 630 milyon manat təşkil edib. Sektorun balans kapitalı 3 929 milyon manat, əhalinin əmanətləri isə 7 868 milyon manat olub. 2018-ci ilin may ayı ərzində bank sektorunun aktivləri 0,3 faiz (92 milyon manat), öhdəlikləri 0,6 faiz (149 milyon manat) azalıb, kapitalı isə 1,5 faiz (57 milyon manat) artıb.




Bank sektorunda kredit aktivliyinin artması müşahidə olunur. Belə ki, kredit portfeli may ayı ərzində 1,1 faiz (130 milyon manat) artıb.

2018-ci ilin may ayında daha sabit maliyyələşmə mənbəyi hesab olunan əhalinin müddətli əmanətləri 2,5 faiz (137 milyon manat) artıb.

Bank sektoru cari ilin may ayında 52 milyon manat mənfəət generasiya edib. Əldə olunan mənfəət sektorun sağlamlaşdırılması tədbiri olaraq ötən dövrlərdə formalaşmış kredit itkilərinin qarşılanmasına yönəldilib.

Fəaliyyət göstərən 30 bankın filiallarının sayı 511, şöbələrinin sayı 143, ATM-lərin sayı 2 471 olub. Bütövlükdə, bank sektorunun işçi heyəti may ayı ərzində 1 faiz (159 nəfər) artaraq 16 662 nəfər təşkil edib. İlin əvvəlindən isə bank sektorunun işçi sayı 3 faiz (491 nəfər) artıb.

Mayın 31-nə bank sektorunun əsas göstəriciləri bank sektorunun icmal göstəricilərində öz əksini tapıb.

# Pakistan Azərbaycana 4,2 milyon dollar həcmində sərmayə yatırıb

Bu barədə iyulun 4-də İqtisadiyyat Nazirliyinin və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan–Pakistan biznes forumunda iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov bildirib.

Nazir müavini qeyd edib ki, Azərbaycan Pakistan şirkətləri üçün daha böyük imkanlar yaradacaq qarşılıqlı sərmayələrə daha çox diqqət yetirməlidir.



KİVDF

www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

## *Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi*

# AQROPARKLAR KƏND TƏSƏRRÜFATININ DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFINI TƏMİN EDƏN UNİKAL QURUMDUR

Artıq 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkə iqtisadiyyatının əsas sahələrinin bazar prinsiplərinə keçdiyini bəyan etmişdir. O vaxtdan 14 il keçir. Bu illər ərzində ölkənin sosial-iqtisadi həyatında, qeyri-neft sektorunun, azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafında ciddi irəliləyişlər baş vermişdir. 2004-2018-ci illər ərzində 1,9 milyon yeni iş yeri açılmışdır ki, bunun da çox hissəsi özəl sektorun payına düşür. Son 14 il ərzində regionların sosial-iqtisadi inkişafına dair üç mərhələ Dövlət Proqramları qəbul edilmiş, həmin Proqramların uğurlu icrası nəticəsində aqrar bölmədə yeni iqtisadi münasibətlər təşəkkül tapıb formalaşmışdır. 14 il ərzində milli iqtisadiyyat 3 dəfədən çox genişlənmiş, strateji valyuta ehtiyatları 23 dəfə artaraq 42 milyard dolları ötüb keçmişdir. Artıq respublikada keyfiyyətcə yeni sahibkarlıq zümrəsi, yeni tipli modern istehsal və emal müəssisələri yaranmışdır. 2004-2018-ci illər ərzində respublika iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuş, sahibkarlıq subyektlərinə güzəştli şərtlərlə 2 milyard manatdan artıq kredit verilmişdir. Regional İnkişaf Proqramlarının gerçəkləşməsi nəticə etibarilə ölkədə qeyri-neft sektorunun inkişafının davamlı şəkildə sürətlənməsinə və iqtisadiyyatda diversifikasiya proseslərinin dərinləşməsinə güclü təkan vermişdir ki, bu da əhalinin həyat səviyyəsində öz real təcəssümünü tapmışdır. Azərbaycan dünyanın ən az borc alan 10 ölkəsindən biridir. Sahibkarlıq mühitini və biznes fəaliyyətini yaxşılaşdırmaq üçün atılan addımlar, investisiyaların təşviq edilməsi sonucda ümumi məhsul istehsalının artmasına gətirib çıxarmışdır. Son illər Azərbaycanda aqrar sahədə beynəlxalq əhəmiyyətli layihələrin reallaşdırılması ixrac potensialının artmasında və onun coğrafiyasının genişlənməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermer təsərrüfatlarının texniki-innovativ təminatında, istehsal, emal və istehlak zəncirinin əlaqəli şəkildə qurulmasında mühüm rol oynamışdır.

**Nəhəng aqrar sənaye komplekslərinin yaradılması zərurətdən doğub**

Respublikamızın ayrı-ayrı bölgələrində bir-birinin ardınca açılıb istifadəyə verilən aqroparklar və logistika mərkəzləri bu məqsədlərin həyata keçirilməsinə xidmət edir. İndiyədək ölkə miqyasında 5 aqropark açılmış, bu günlərdə Goranboy rayonunda yaradılan daha bir aqroparkın açılışında cənab prezidentin özü şəxsən iştirak etmişdir. Daha 31 aqroparkın tikintisi aparılır. Ölkədə yaradılan ən iri aqroparklardan biri keçən il avqust ayının 20-də cənab Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən «Şəmkir Aqropark»ıdır.

Yuxarıda deyildiyi kimi, bu aqroparkın yaradılması bölgədə yaşayan sahibkarlıq subyektlərinə texniki-innovativ, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, toxum, şitil, ting, dərman və gübrə ilə təmin olunmasına, kiçik təsərrüfat subyektlərinin iri sənaye istehsalına keçidinin və xarici bazarlara çıxışının təmin edilməsinə yeni imkanlar və yollar açmışdır. «Şəmkir Aqropark»ı qərb regionunda ixrac potensialının artmasında mühüm rol oynayacaq, dünyanın qabaqcıl logistik şirkətləri ilə əlaqələrin qurulmasına imkan verəcək, yerli məhsulların «Made in Azerbaijan» brendi ilə xarici bazarlara çıxarılmasını təmin edəcək.

Qısa zaman kəsiyində belə bir nəhəng strukturun ərsəyə gəlməsi zərurətdən doğub və cənab Prezident İlham Əliyevin aqrar bölmədə irəli sürdüyü inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Cənab prezident tərəfindən 2014-cü ildə təməli qoyulan bu kompleksin qısa müddətdə tikilib istifadəyə verilməsi davamlı maliyyə vəsaitləri hesabına mümkün olmuşdur.



Aqroparka 8604 hektar, o cümlədən Könüllü kəndi ərazisində 604 hektar, «Ceyrançöl» massivində isə 8000 hektar torpaq sahəsi ayrılıb. İri taxılçılıq, bitkiçilik və meyvəçilik təsərrüfatlarını özündə birləşdirən aqroparkın ərazisində aqrar bölmənin inkişafına güclü təkan verəcək 8000 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Kür çayından əraziyə iki istiqamətdə 730 min diametrli dəmir borularla 15,6 km uzunluğunda təsərrüfatdaxili su xətləri çəkilib.

Aqroparkın ərazisində bütün zəruri strukturlar yaradılıb. Bu məqsədlə 3,2 milyon manat vəsait ayrılıb. Aqropark üçün 10 ədəd müasir tipli «New Holland» markalı traktor və 45 adda müxtəlif kənd təsərrüfatı maşın və mexanizmi lizinq yolu ilə alınıb. Ümumi tutumu 15 milyon kubmetr olan 3 ədəd sututar inşa edilib və sahəsi 2,1 milyon kubmetr olan su anbarı tikilib. Ərazidə 16 min k.vat gücündə elektrik yarımstansiyası, 6 ədəd transformator quraşdırılıb və 35 km uzunluğunda elektrik xətləri çəkilib. Bundan başqa, 2 ədəd üzən panton üzərində 3 ədəd yeni motor və su nasosu, 1000 hektar torpaq sahəsində ABŞ-ın «Lindsay» şirkətindən alınmış 14 ədəd müxtəlif radiuslu müasir pilot suvarma aqreqatı və avadanlıqları quraşdırılıb.

Keçən il sahələrdən 14 min ton şəkər çuğunduru yığılaraq, İmişli şəkər zavoduna təhvil verilib. Cari ildə həmin ərazıyə qarğıdalı əkilib. «Ceyrançöl» massivində 35 nəfər daimi, 200 nəfər mövsümi işlə təmin olunub. Burada ümumi sahəsi 200 kvadratmetr olan 3 otaqdan ibarət ofis binası tikilib.

İntensiv bağçılıq təsərrüfatlarının yaradılması məqsədilə 2400 hektarda suvarma sistemləri quraşdırılıb. Gələcəkdə burada 36.000 ton məhsul götürülməsi nəzərdə tutulur. Sahələrdə, əsasən, kartof, soya, soğan və digər bitkilər əkiləcək. Həmin məhsulların saxlanılması üçün 30.000 tonluq taxıl anbarı kompleksinin tikilməsi və 10.000 tonluq kartof saxlama kamerasının yaradılması nəzərdə tutulur.

8000 hektar torpaq sahəsində aqrotexniki tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün ABŞ-ın «John Deere» şirkətinin istehsalı olan 30 adda müxtəlif kənd təsərrüfatı texnikası və avadanlıqları alınacaq. Nəticədə, 5000 daimi, 1500 mövsümi iş yeri açılacaq.

**Logistika mərkəzləri aqropark kompleksi zəncirində mühüm həlqədir**

«Ceyrançöl»də salınan bağçılıq təsərrüfatlarının məhsulları aqroparkın logistika mərkəzində emal ediləcək, ixrac və satış əməliyyatları məhz burada həyata keçiriləcək. Aqroparkın Könüllü kəndi ərazisində yerləşən hissəsi 604 hektarı təşkil edir. Bunun 100 hektar sənaye sahəsi, 200 hektarı istixanalar, 274 hektarı intensiv bağçılıq, 25 hektarı tinglik, 5 hektarı isə şitillik üçün nəzərdə tutulub.

Logistika mərkəzinin ərazisi 12,3 hektardır. Burada Fransanın «Mof Roqa» şirkətinin meyvələri ölçüsünə və rənginə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İri kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur. Burada İtaliyanın «İsolcell» şirkətinə məxsus, ümumi tutumu 24.000 ton olan 71 ədəd ULO tipli soyuducu saxlama kamerası quraşdırılıb. Soyuducu depolarda meyvə və tərəvəzin növlərinə görə 25 gündən 270 günə qədər minimum itki və keyfiyyətlə saxlanmasını təmin edir. İstehsal sahəsində eyni vaxtda 200 ton məhsulu qəbul edən iki terminal, 120 ton hazır məhsulu yola salan bir terminal yaradılıb.

Logistika mərkəzində meyvə və tərəvəzlərin keyfiyyətini, toksikliyini, bakterioloji və mikrobioloji göstəricilərini müəyyən edən laboratoriya fəaliyyət göstərir. Çeşidləmə, qablaşdırma, soyuducu kameralara yerləşdirmə yüksək texnoloji standartlara uyğun şəkildə aparılır.

Logistika mərkəzində regionda geniş yayılan şərq xurmasının alıcılıq qabiliyyətinə təsir göstərən xüsusi tamın aradan qaldırılması üçün sutkada gücü 1 ton olan «determing room» qurğusu işə salınıb. Həmçinin, burada sahibkarlıq subyektlərinin ixrac əməliyyatları proseslərini sadələşdirmək üçün «bir pəncərə» sistemi yaradılıb. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyinin Ekspertiza Mərkəzinin, Dövlət Fitosanitar Nəzarət Xidmətinin, «Atabank» Kommersiya Bankının müvafiq strukturları fəaliyyət göstərir.

Mərkəzin kommunikasiya təminatı üçün dövlət dəstəyi ilə 25 meqavat gücündə elektrik stansiyası tikilib, 3 km-lik qaz xətti və 22 km-lik fibro-optik rabitə xətti çəkilib. Buraya 10 km uzunluğunda dəmir yolu xəttinin çəkilişi planlaşdırılır. Mərkəzin ərazində 20 TIR yük avtomobil dayanacağı, helikopter meydançası, qazanxana tikilib. Mərkəzdə ümumi sahəsi 2600 kvadratmetr olan ofis binası, konfrans zalı, yeməkxana və s. infrastruktur obyektləri yaradılıb, ərazidə geniş abadlıq işləri aparılıb. Layihənin ümumi dəyəri 100 milyon manatdan çoxdur. Tikintiyə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 22,7 milyon manat güzəştli kredit ayrılıb.

«Şəmkir Aqropark»ı logistika mərkəzi tam işə düşdükdən sonra 274 nəfər işlə təmin olunacaq. Hazırda burada 200 nəfərə qədər işçi çalışır və orta aylıq əməkhaqqı 600 manat təşkil edir.

**Son söz əvəzi**

Belə nəhəng, modern aqrar-sənaye komplekslərinin ərsəyə gəlməsi Azərbaycanın iqtisadi gücünün və qüdrətinin təcəssümüdür. Aqropark ərazisinə ayaq basmadan, hər şeyi seyr etmədən, öz gözlərinlə görmədən burada yaradılan möhtəşəmlikləri sözlə ifadə etmək çətindir. Peşə fəaliyyətimlə bağlı vaxtaşırı xarici ölkələrdə səfərdə oluram. Səmimi etiraf edirəm ki, nə yaşadığımız bölgədə, nə də postsovet məkanının heç bir respublikasında özündə müasir texnoloji nailiyyətləri ehtiva edən bu tipli kompleksə rast gəlməmişəm. Dünyanın ən son standartları Azərbaycana gətirilib. Yaxın illərdə ölkəmizin hər bir bölgəsində bu tipli aqroparklar, logistika mərkəzləri tikilib istifadəyə veriləcək. Bunların hər biri Azərbaycana böyük dividendlər gətirəcək, xalqımızın həyat səviyyəsinin və yaşam tərzinin yüksəlməsinə xidmət edəcək.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Fond 33 qəzetə maliyyə yardımının ayrılması barədə qərar qəbul edib



İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib.

1. Fondun 2018-ci ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim edilmiş layihə sənədlərinin müzakirəsi və təsdiqi;
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş Azərbaycan Mətbuat Şurasının "Ahıl jurnalistlərə qayğı: keçmişimizə ehtiram gələcək üçün təcrübə qaynağımızdır" mövzusunda layihəsinin müzakirəsi və təsdiqi;
3. Cari məsələlər.

Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. Müzakirəyə çıxarılan məsələ barədə ətraflı məlumat verən Vüqar Səfərli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq 33 qəzetin müsabiqəyə sənəd təqdim etdiklərini diqqətə çatdırıb. Həmin qəzetlərin layihələrinin 2018-ci ilin I yarısında da Fond tərəfindən maliyyələşdirildiyini xatırladan icraçı direktor müsabiqədə yeni iştirak edən qəzetlərin olmadığını bildirib. Müvafiq araşdırmalardan sonra sənəd təqdim etmiş 33 qəzetin layihə təkliflərinin müsabiqənin şərtlərinə cavab verdiyi müəyyən edilib.

Sonra qəzetlərdən daxil olmuş sənədlər ətrafında müzakirələr başlayıb. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Rasim Həsənov, İntiqam Hümbətov və Ayaz Mirzəyev Fondun maliyyə yardımlarının qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda 33 qəzetin sənədlərinin müsabiqənin şərtlərinə cavab verdiyi nəzərə alınaraq, onlara 2018-ci ilin ikinci yarısında maliyyə yardımının ayrılması barədə qərar qəbul edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən Vüqar Səfərli bildirib ki, Azərbaycan Mətbuat Şurasının "Ahıl jurnalistlərə qayğı: keçmişimizə ehtiram gələcək üçün təcrübə qaynağımızdır" mövzusunda layihəsinin məqsədi mediamızın inkişafında xidmətləri olmuş veteran jurnalistlərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, onların sosial müdafiəsinin gücləndirilməsidir. İcraçı direktor qeyd edib ki, layihənin həyata keçirilməsi üçün 12.000 manat vəsaitin ayrılması təklif olunur.

Müzakirələr zamanı Müşahidə Şurasının sədri Həsən Həsənov - sədr müavini İlqar Hüseynov, üzvlərdən Cəmaləddin Quliyev, İntiqam Hümbətov, Bəhruz Quliyev, Rasim Həsənov və Ayaz Mirzəyev layihənin veteran jurnalistlərin sosial qayğılarının həlli baxımından əhəmiyyətli olduğunu vurğulayıblar. Şura üzvləri layihənin maliyyələşdirilməsi üçün 12.000 manat məbləğində vəsaitin ayrılması təklifini yekdilliklə qəbul ediblər.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

## *Elm və təhsilin inkişaf etdirilməsi*

# İNSAN KAPİTALI İNKİŞAFIN İNTENSİV MƏHSULDARLIQ AMİLİDİR

> **"Beşikdən qəbir evinə qədər elm öyrən..."**
> **Hz. Muhəmməd (s.a.s)**

Azərbaycan müstəqil dövlət kimi gənc olsa da, keçdiyi inkişaf yolu əsrlərə bərabərdir. Bu gün Azərbaycanın hərtərəfli inkişafı göz qabağındadır. İndi bütün dövlətlər, siyasi və iqtisadi təşkilatlar, inkişafa dəstək verən beynəlxalq qurumlar Azərbaycanla hesablaşır, onunla əməkdaşlığa maraq göstərirlər. Respublikamızın beynəlxalq səviyyədə mövqeləri də xeyli güclənib. Azərbaycan dünya birliyinin sayılıb-seçilən, hörmətli üzvünə çevrilib.

2012-ci ildə Bakıda keçirilən "Eurovision" mahnı yarışması, 2015-ci ildə keçirilən I Avropa Oyunları və 2017-ci ildə baş tutan IV İslam Həmrəyliyi Oyunları bütün dünyanın izlədiyi, minlərlə iştirakçının qatıldığı kütləvi tədbirlər idi. Bu tədbirlərin hər biri dünyada mühüm hadisəyə çevrilməklə yanaşı, Azərbaycanın potensialını nümayiş etdirdi. Məhz bu yarışlardan sonra dünya Azərbaycanı daha yaxından tanıdı.

Sevindirici haldır ki, ötən il Azərbaycan növbəti beynəlxalq tədbirə - Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə ("Expo 2025") ev sahibliyi etmək üçün paytaxtımız Bakının namizədliyini irəli sürüb. Tarixi 1851-ci ilə gedib çıxan Ümumdünya Sərgisi dünyada ən böyük və ən davamlı qlobal tədbir hesab olunur.

Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması münasibətilə ötən il Parisdə təşkil edilən rəsmi qəbulda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib: "Bakı sərgisi 26 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərin tanıdılması üçün daha bir imkan olacaqdır. Bu, həmçinin bütün gənc, müstəqil ölkələr üçün çox güclü bir stimul olacaqdır. 2025-ci ildə Ümumdünya Sərgisini təşkil etmək bizim səmimi istəyimizdir. Əgər bu şərəfə layiq görüləriksə, biz bütün dünyanı Azərbaycanda və gözəl şəhərimiz olan Bakıda qürurla qarşılayacağıq".

"Expo 2025" sərgisinin mövzusu "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" olacaq. Bu da onu göstərir ki, Bakı namizəd şəhər kimi bu sərgidə, əsasən, insan amilinə üstünlük verir.

Bakı ilə yanaşı, Rusiyanın Yekaterinburq, Yaponiyanın Osaka və Fransanın paytaxtı Paris şəhərləri də "Expo 2025" Ümumdünya Sərgisinin keçirilməsi üçün namizədliklərini irəli sürüb. Sərginin keçiriləcəyi şəhər bu ilin noyabrında müəyyən olunacaq.

Artıq Maliyyə Nazirliyi bu tədbirin keçirilməsinə hazırlıq üçün 7 illik təxmini büdcəni 765 mln. avro məbləğində müəyyən etmişdir.

2025-ci ildə Ümumdünya Sərgisinin Azərbaycanda keçirilməsi çox gözəl təşəbbüsdür. Bu tədbirə nüfuzlu alimlər, dünyanın tanınmış universitetlərinin və şirkətlərinin nümayəndələri, insan resurslarının idarəedilməsi sahəsində



yüksək səviyyəli mütəxəssislər qatılacaq. İnsan kapitalının inkişafı daha çox təhsil sektorunun üzərinə düşdüyünə görə tədbirə gələcək qonaqların qarşısına layiqincə çıxmaqdan ötrü qarşıdakı 7 il ərzində ölkəmizdə təhsilin səviyyəsini elə səviyyədə qurmalıyıq ki, təhsil müəssisələrimiz öz müsbət təcrübələrini qonaqlarla bölüşə, onlara insan kapitalının inkişafı sahəsində maraqlı innovasiyalar təqdim edə bilsin.

**İnsan kapitalı inkişafın əsasıdır**

Hər bir ölkənin sərvəti insandır. İnsanın maddi, intellektual və mənəvi imkanlarının, insan kapitalının inkişafı dövlətin mühüm vəzifəsinə çevrilir. İnsan kapitalının formalaşması üçün təhsil mühüm alətdir. Təhsil insanların həyat keyfiyyətinin yüksəldilməsinə və onların öz vətəndaş hüquqlarının və öhdəliklərinin həyata keçirilməsinə kömək edir. Təhsilli insanlar daha məhsuldar olur. Onlar meydana çıxan problemlərin və çətinliklərin aradan qaldırılmasında daha geniş imkanlara malikdirlər, öz işlərini daha səmərəli yerinə yetirmək iqtidarındadırlar.

İnsan kapitalının təhsil və peşə hazırlığı vasitəsilə formalaşması investisiyaların cəlb edilməsinə kömək edir, yeni texnologiyaların işlənib hazırlanmasını və tətbiqini fəallaşdırır və məhsuldarlığı yüksəldir.

İnsan kapitalının formalaşması və inkişafı mövzusu ölkəmiz üçün yeni deyil. Hələ 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cenevrədə "İnformasiya cəmiyyəti quruculuğu üzrə ümumdünya sammiti"ndə qeyd etmişdi ki, «İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik».

Müasir dövrdə dövlətlərin inkişaf səviyyəsi insan kapitalının səviyyəsi ilə müəyyən edilir. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksək olub, təxminən 70% təşkil edir.

Hazırda Azərbaycanda da müasir, innovasiyalı iqtisadiyyatın ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşmasına, möhkəmlənməsinə və inkişafına xüsusi diqqət göstərilir. Bu mənada, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar hər bir Azərbaycan vətəndaşının rifahının yüksəldilməsinə yönəlib. Prezident İlham Əliyevin vurğuladığı kimi, insan amili, ölkə vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması, ölkəmizin yüksək inkişaf etmiş ölkələr sırasına daxil olması həyata keçirilən çoxşaxəli islahatların başlıca hədəfidir.

Bu gün Azərbaycan Respublikası qarşısında duran strateji vəzifə sosial-iqtisadi həyatın modernləşdirilməsi, beynəlxalq təcrübə və elmi innovasiyaların sosial-iqtisadi həyatda uğurlu tətbiqidir. Bu məsələlərin həlli məhz insan kapitalının inkişafını, insanların müasir bilik və bacarıqlara yiyələnməsini tələb edir. Elə BMT-nin «Minilliyin inkişaf məqsədləri» proqramında da davamlı inkişafın təmin edilməsi üçün müəyyən edilmiş 8 prioritet məqsədin əksəriyyəti insan kapitalının inkişafı ilə bağlıdır.

Ölkəmizdə həyata keçirilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" kimi strateji sənədlərin hər birində insan kapitalının inkişafı, təhsilin inkişafı prioritet istiqamətlərdir. Bu sənədlərin məqsədi ölkədə insan kapitalının inkişafı ilə iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək, bütün sahələrdə tərəqqini sürətləndirmək, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaqdır.

**Bu gün təhsilin vəziyyəti necədirsə, gələcəkdə ölkənin durumu elə olacaq**

Hazırda ölkəmizdə təhsilin, təhsil islahatlarının vəziyyəti barədə təhsil üzrə ekspert, dos. İlham Əhmədov deyir: "Müasir təhsil çox mürəkkəb və çox dinamik bir sistemdir. Belə bir deyim var: "Bu gün təhsilin vəziyyəti necədirsə, gələcəkdə ölkənin durumu elə olacaq". Bu səbəbdən təhsil bu gün bütün ölkələr üçün prioritet sahədir, bu sahədə aparılan islahatlarda naşılıq etmək təhsil sistemini, ardınca isə ölkənin bütün digər sahələrini geri ata bilər.

Müasir təhsil fasiləsiz olduğu kimi, təhsil islahatları da fasiləsiz olmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "...təhsil sahəsi daim islahat tələb edən sahədir." Bu gün inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələr daha mükəmməl təhsil sistemi qurmaq haqqında düşünürlər. Çünki bugünkü təhsil müasir innovasiya cəmiyyətinin texnologiya tələblərinə və gənc nəslin tələblərinə cavab vermir, müasir təhsil yeni rəqəmsal zamanın yaradıcı insanını yetirməkdə acizdir. Bill Geyts 10 il əvvəl deyirdi ki, vaxt gələcək, universitetlər İnternetlə rəqabətə girə bilməyəcəklər. Həmin dövr yetişib artıq. Amma keçid dövrünü yaşayan ölkələrdəki təhsil problemləri inkişaf etmiş ölkələrdəki təhsil problemlərindən tam fərqlənir. Bunun əsas səbəbi bu ölkələrdəki insan kapitalının və təhsilə qoyulan investisiyaların az olmasıdır. Əslində ən böyük investisiya imkanı məhz təhsil sistemindədir. Bu sektora qoyulan hər bir dollar onqat geri qayıdır. Təhsilə qoyulan əsas investisiya insan resurslarına, texnologiyalara, təhsildə İT-nin tətbiqi və yeni innovasiyaların yaradılmasına, elm-təhsil-innovasiya-istehsalat əlaqələrinin inkişafına xidmət etməlidir. Bu gün heç bir tədris korpusu olmayan və milyonlarla tələbəsi olan meqauniversitetlər var. Onlar dünyanın müxtəlif universitetlərindən tələbələr cəlb edərək, milyard dollarlarla pul qazanırlar. Çünki bu universitetlərə vaxtında kifayət qədər maliyyə yatırılıb və müasir təhsili mükəmməl bilən insan resursları cəlb edilib.

Son 20 il ərzində ölkəmizdə təhsil sahəsində aparılan islahatlara nəzər salanda görünür ki, müasir dövrün təhsil sistemi qarşısında qoyduğu məsələlərə hələ kifayət qədər nail ola bilməmişik. Yaxın gələcəkdə biz təhsil sahəsində qlobal tələbləri icra etməyə çalışmalı, dünyanın TOP-1000 universitetləri sırasında 2-3 universitetlə təmsil olunmalıyıq. Sonrakı mərhələdə isə əldə etdiyimiz nailiyyətləri təkmilləşdirərək, daha çox investisiya yatıraraq dünya standartlarına daha yaxın ola bilərik".

Göründüyü kimi, problemlər var və hazırda onların həlli yolları axtarılır. Bu gün Azərbaycanda peşə təhsilinin vəziyyəti də qənaətbəxş deyil. Bununla əlaqədar Təhsil Nazirliyində müəyyən işlər görülür. Təhsil naziri Ceyhun Bayramovun sözlərinə görə, "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına uyğun olaraq bir sıra istiqamətlər üzrə yeni qanunvericilik aktları qəbul olunmaqdadır. "Peşə təhsili haqqında" Qanunun qəbulu ilə təhsil pillələri arasında keçid təmin olunacaq. Habelə peşə təhsilinin müddətindən, proqramların məzmunundan asılı olaraq ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili olacaq. Eyni zamanda, qanuna əsasən, yüksək texniki peşə təhsilinin subbakalavr pilləsi ilə uyğunlaşdırılması da nəzərdə tutulur".

Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, "xalqımız istedadlı xalqdır, inanırıq ki, elm-təhsil sahəsində də ölkəmiz inkişaf edərək, dünya səviyyəsinə yaxınlaşacaq, elm və təhsil sahəsində çoxsaylı innovasiyalarla qlobal səviyyədə nailiyyətlərə imza atacaqdır".

Azərbaycan İKT sahəsində xeyli uğurları olan kosmik dövlətdir, ASAN xidmət kimi mütərəqqi bir ideya məhz bizim ölkədə həyata keçirilib. İndi Azərbaycan dünyada tanınır, onunla hesablaşırlar. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda Azərbaycan 138 dövlət arasında 35-ci yerdədir (MDB ölkələri arasında isə 1-ci yerdə). Bütün bunlara rəğmən deyə bilərik ki, "Expo-2025" sərgisinin Azərbaycanda keçirilməsi təşəbbüsü öz müsbət həllini taparsa, bu, ölkəmizdə elmin, təhsilin və insan kapitalının inkişafına yeni təkan verə bilər.

**Yeganə MƏMMƏDOVA**

# Ожидаемая кампания от ОАО «АтаБанк» начинается снова

Кампания «Оплати безналично, получи наличными» от ОАО «АтаБанк» начинается снова.«Оплати безналично, получи наличными» – это шанс для держателей карт любых местных банков выиграть деньги от ОАО «АтаБанк». В лотерее могут принимать участие резиденты, осуществляющие безналичные операции посредством карт, выпущенных любым действующим банком в Азербайджане, при использовании POS-терминалов, установленных ОАО «АтаБанк» на различных торговых, общественно-бытовых и обслуживающих объектах.

Пользователи платежных карт получают один лотерейный купон за каждый представленный чек или чеки на общую сумму 25 манатов. Именно этот купон дает вам шанс стать победителем и выиграть один из тысячи призов.

Для получения купонов мгновенной стимулирующей лотереи пользователи карт должны собрать все чеки об оплате через POS-терминалы ОАО «АтаБанк» в течение календарного месяца и представить их в любой филиал или отделение банка.

Кампания стартовала 1 июня 2018 года и будет продолжаться до 31 декабря 2018 года.

Отметим, что кампания посвящена двадцатипятилетнему юбилею банка.

ОАО «АтаБанк» является высокотехнологичным универсальным азербайджанским банком со стопроцентным местным капиталом.




# 1500 ДЕЛЕГАТОВ ПРИМУТ УЧАСТИЕ НА CASPIAN ENERGY FORUM BAKU – 2018

На 7-ом Международном Caspian Energy Forum Baku–2018 примут участие более 1500 делегатов из 50 стран мира. Caspian Energy Forum Baku– 2018 пройдет 19-20 сентября при поддержке правительства Азербайджанской Республики и Caspian European Club. Среди делегатов Caspian Energy Forum Baku– 2018 - члены правительства Азербайджана, главы государственных и транснациональных компаний, международных финансовых институтов, ведущих аналитических центров, инвестиционных компаний и рейтинговых агентств стран европейского, азиатского и американского континента, а также представители компаний стран арабского мира.

Caspian European Club был создан в июне 2002 года при поддержке крупнейших нефтегазовых компаний, работающих в Каспийско-Черноморском регионе. 24 декабря 2016 года был создан Caspian American Club, а 26 января 2018 года - Caspian Asian Club, которые в течение 2 лет будут управляться членами правления Caspian European Club. Все компании, вступающие в Caspian European Club автоматически считаются членами Caspian American Club, Caspian Asian Club и наоборот. С момента создания Caspian European Club способствует привлечению доходов от нефтяной отрасли на развитие ненефтяного сектора.

Caspian European Club, Caspian American Club и Caspian Asian Club объединяющие в своих рядах свыше 5000 компаний и организаций, работают в 70 странах мира, ведут активную работу по поддержке диалога между государственными структурами и частным сектором. Председателем Caspian European Club, Caspian American Club и Caspian Asian Club является Президент Азербайджанской Республики Ильхам Алиев.

# ЦБА привлек на депозитном аукционе 350 млн манатов



Центральный банк Азербайджана 2 июля на депозитном аукционе принял у банков 350 млн манатов при их предложении в 762,4 млн манатов, говорится в сообщении ЦБА.Средневзвешенная ставка по депозитным сделкам, заключенным в рамках аукциона, составила 8,01% (пятый месяц подряд), средства привлечены сроком на 14 дней. Данные аукционы проводятся с июня 2016 года в рамках мер ЦБА по кредитно-денежной политике. В Азербайджане действуют 30 банков.

# Экспорт ненефтяной продукции из Азербайджана составил 29 миллионов 495 тысяч долларов

За шесть месяцев нынешнего года экспорт ненефтяной продукции из Азербайджана составил 29 миллионов 495 тысяч долларов США. А экспортное поощрение за этот период составило 2 миллиона 185 тысяч манатов. Об этом заявил исполняющий обязанности президента Фонда поощрения экспорта и инвестиций в Азербайджане Юсиф Абдуллаев.




# Стартовали коммерческие поставки газа в Турцию по «Южному газовому коридору»

Первые коммерческие поставки газа из Азербайджана в Турцию в рамках проекта «Южный газовый коридор» (ЮГК) стартовали в минувшие выходные, сообщил генеральный директор ЗАО «Южный газовый коридор» Афган Исаев, слова которого приводятся в пресс-релизе ЗАО.

Он отметил, что работы, запланированные для поставок природного газа в Европу через Турцию, осуществляются в соответствии с графиком. Напомним, что Европа получит первый азербайджанский газ с ЮГК в первой половине 2020 года с запуском Трансадриатического газопровода (TAP). В турецкой провинции Эскишехир при участии президентов Азербайджана - Ильхама Алиева, Турции - Реджепа Тайипа Эрдогана, Украины - Петра Порошенко и Сербии - Александра Вучича состоялась церемония открытия Трансанатолийского трубопровода (TANAP, его основная часть до Эскишехира уже работает).



# В Баку пройдет конференция по криптовалютам с участием главы компании Digithereum



В Баку 7 июля пройдет «Baku BLOCKCHAIN Event 2018» - конференция по блокчейну и криптовалютам при поддержке известной азиатской компании Digithereum. Цель конференции - дать участникам глубокое понимание о возможностях технологии «блокчейн» и конкретных инструментах заработка на данной платформе. Уникальный гость конференции - исполнительный директор компании Digithereum Simon Sze (Гонконг).

Темы конференции: блокчейн, криптовалюта. Способы получения дохода на криптовалютах и в криптовалютах, практика внедрения криптовалют в реальном бизнесе, презентация компании Digithereum от ее исполнительного директора.

Отметим, что Digithereum действует с 2007 года, является влиятельным в Азии криптовалютным хедж-фондом. В 2018 году выходит на европейский рынок, сотрудничает с одним из создателей криптовалют в мире – компанией Ethereum.

# Оглашены сроки открытия первого торгового дома Азербайджана в ЕС

Торговый дом Азербайджана в Латвии будет открыт до конца июля, сказал в понедельник исполняющий обязанности председателя Азербайджанского фонда поощрения экспорта и инвестиций (AZPROMO) Юсиф Абдуллаев на очередном заседании Клуба экспортеров.

"Это будет первый торговый дом Азербайджана в странах Европейского союза, что показывает направление расширения нашего экспорта", - сказал Абдуллаев.

Абдуллаев отметил, что в настоящее время функционируют торговые дома Азербайджана в Беларуси и Украине, а до конца года их число будет увеличено.

"До конца года мы планируем открыть винный дом в Китае и еще несколько торговых домов в различных регионах Китая. Кроме того, планируется открытие торговых домов Азербайджана в ОАЭ и ряде других стран", - сказал Абдуллаев.



Коммерческий регистр предприятий Латвии зарегистрировал ООО "Торговый дом Азербайджана" в декабре прошлого года.

ООО создается с целью управления Торговым домом Азербайджана в Латвии.

Торговый дом будет поддерживать продвижение азербайджанской продукции под брендом Made in Azerbaijan в Латвии, маркетинговые исследования, участие в выставках в рамках единого стенда и другую деятельность, связанную с продвижением азербайджанских товаров.

# BP и SOCAR довольны началом коммерческих поставок газа в Турцию

BP, как технический оператор освоения каспийского месторождения «Шахдениз», сегодня сообщил об успехе в реализации проекта мирового уровня – «Южный газовый коридор» (ЮГК) и начале выполнения обязательств перед потребителями в Турции благодаря старту коммерческих поставок газа со второго этапа разработки «Шахдениз».

Как говорится в сообщении BP-Azerbaijan, «давние партнерские отношения, которые мы имеем в Азербайджане и во всем регионе, позволили нам добиться успеха этого проекта мирового уровня. Мы достигли цели (начала коммерческих поставок газа в Турцию по ЮГК) безопасно, по графику и в рамках бюджета. Это демонстрирует, что вместе мы можем успешно и качественно выполнять сложные проекты». «Мы с нетерпением ожидаем продолжения развития таких поставок и будем тесно сотрудничать с правительством Азербайджана, SOCAR и другими партнерами в реализации нашей следующей задачи – доставки газа в Европу в 2020 году», - сказано в пресс-релизе.

Сообщение приводит цитату президента SOCAR Ровнага Абдуллаева: «Поставка первого коммерческого газа через TANAP (турецкий участок БГК) знаменует собой важную веху в реализации ЮГК. Несмотря на сложность этого мега-проекта, нам удалось координировать и запускать сегменты ЮГК в Азербайджане, Грузии и Турции по графику и по бюджету. Реализация проекта «Шахдениз-2» подтвердит отличную репутацию SOCAR, Азербайджана и всего региона».

В сообщении также отмечено, что на плато проект «Шахдениз-2» будет давать 16 млрд кубометров газа в год. Таким образом суммарная добыча с месторождения «Шахдениз» (стадии 1 и 2) составит 26 млрд кубометров газа, а также 120 тыс. баррелей конденсата в сутки.

С 2006 года по сей день пока ведется добыча газа лишь с «Шахдениз-1», и в прошлом году с него было получено 10,2 млрд кубометров газа и 2,4 млн тонн конденсата (около 52 тыс. баррелей в сутки).

Масштабный проект «Шахдениз-2» Азербайджана оценен в 28 млрд долларов США, будет не менее 26 подводных скважин.

Месторождение «Шахдениз» на Каспии занимает около 860 кв. километров, было открыто в 1999 году с запасами свыше 1 трл кубометров газа и 2 млрд баррелей конденсата.

К настоящему времени извлечено более 91 млрд кубометров газа и около 23 млн тонн конденсата.

# "REKLAM İŞİNİN TƏŞKİLİ" FƏNNİNİN TƏDRİSİNƏ YENİ TÖHFƏ

Bu gün reklamın aktuallığı şübhə doğurmur, çünki o, bazar iqtisadiyyatının inkişafında başlıca rol oynayır və onun əsas elementi sayılır.

Reklam ticarətin, o cümlədən xarici ticarətin hərəkətverici qüvvəsidir və bu gün də aktuallığı ilə seçilir.

Müasir dünyanı reklamsız təsəvvür etmək olmaz. Hazırda reklam bazar iqtisadiyyatında aparıcı mövqeyə malikdir və iqtisadi, informasiya-kommunikasiya, ümumi mədəni hadisə kimi ön plana çıxır.

Reklam marketinq kommunikasiyalarının hər hansı bir növü kimi müəssisənin marketinq və kommunikasiya strategiyalarının reallaşmasında mühüm rol oynayır.

Heç şübhəsiz, reklam məhsul və xidmətlərin irəliləyişi seqmentində mərkəzi hadisədir.

Müasir reklam fövqəladə dərəcədə mürəkkəb və çoxcəhətli fenomendir ki, bu da yeni iqtisadi, siyasi, sosial-mədəni və texnoloji şəraitin təsiri altında inkişaf edir və dəyişir.

Bütün bu deyilənlər sübut edir ki, bu yaxınlarda Qarayev Fərhad Mirzağa oğlunun, Elşad Nəsim oğlu Yusifovun və Azadə Qadir qızı Novruzovanın müəllifliyi ilə çapdan çıxmış "Reklam işinin təşkili" dərsliyi aktuallığı ilə fərqlənir və zamanın tələbatı ilə səsləşir.

Dərsliyin mündərəcatı, struktur elementləri, konstruksiyası konseptual baxımdan düzgün tərtib edilib və onun geniş mənada platformasını və alqoritmini əhatə edir.

Müəlliflər dərsliyə retrospektiv və reprezentativ yanaşaraq reklamın genezsini, təkamül mərhələlərini və bütünlükdə anatomiyasını və antologiyasını geniş spektrdə və qammada öyrənməyə cəhd etmişlər.

Dərsliyin leytmotivini, ana xəttini, substansional mexanizmini və energetikasını reklamın zəruriliyi, sosial-iqtisadi mahiyyəti, məqsədləri, funksiyaları, xüsusiyyətləri, formaları, vasitələri və növləri təşkil edir.




Müəlliflər qrupu reklam strategiyasının və reklam kampaniyasının hazırlanmasına, yayım vasitələrinin seçilməsinə, reklam fəaliyyətinin planlaşdırılmasına və reklam büdcəsinin hazırlanmasına praqmatik yanaşaraq bütün metamarfozaları və metaforaları həm lokal kontekstdə, həm da ekzogen və endogen palitrada şərh etmişlər.

Dərslikdə diqqəti çəkən məqamlardan biri də odur ki, Azərbaycanda reklam bazarı, reklam biznesi və respublikada reklamın müasir vəziyyəti və inkişaf meyilləri bütün atributiv komponentlərlə kreativ şəkildə izah edilmişdir.

Məlumdur ki, reklam marketinqin tərkib elementlərindən biridir. Bu baxımdan dərslikdə marketinqin kommunikasiya prosesində və marketinqin kommunikasiya sistemində reklamın yeri, həmçinin "pablik rileyşnz" sistemi sinergetik şəpkidəaraşdırılmışdır.

Dərslikdəreklam işinə rəhbərliyin təşkilatı formaları və onun təkmilləşdirilməsi istiqamətləri, istehlakçı davranışı və onun ümumi xarakteristikası, eləcə də marketinq və reklam mühitində istehlakçı davranışının paradiqmaları blok şəklində təhlil edilmişdir.

Şübhəsiz, reklam bazarını informasiya-kommunikasiya texnologiyalarsız və internetsiz təsəvvür etmək çox çətindir. İnformasiya iqtisadiyyatı şəraitində reklam bazarının formalaşmasına, beynəlxalq reklam bazarında internetin roluna məhz bu rakursda və ampulada yanaşılmışdır.

Dərslikdə nəzəri, elmi, metodoloji müddəalar praktiki, riyazi, statistik aparatla zənginləşmişdir. Dərslikdə qoyulan mövzular vertikasiya, ekstrapolyasiya, evristika metodlarına, neotexnoloji modelə əsaslanaraq, stereotiplərdən azad olunmaqla şərh edilmişdir. Müəlliflər haqlı olaraq hesab edirlər ki, reklam bazar iqtisadiyyatının barometrlərini müəyyən etməklə onun empirik konfiqurasiyasını təşkil edir.

Dərslikdə əsas trendlər məlumdur və müəlliflərin xarizmatik yanaşması ön plana çəkilir. Bütünlükdə, dərslik bakalavr və magistr səviyyəsi üzrə təhsil alan tələblər, dokrorantlar, elmi işçilər və müəllimlər, reklam biznesi ilə məşğul olan sahibkarlar və ümumiyyətlə reklam işi ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

F.M.Qarayevdən, E.M.Yusifovdan, A.Q.Novruzovadan ibarət olan qrupun "Reklam işinin təşkili" dərsliyini gərgin əməyin nəticəsi kimi bu fənnin tədrisinə yeni töhfə kimi qiymətləndirmək olar.

**H.B.Rüstəmbəyov, BDU-nun "Dünya iqtisadiyyatı" kafedrasının müdiri, i.e.d., prof.**

**A.M.Məhərrəmov, BDU-nun "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, i.e.d., prof.**

# UNEC-də "Məzun Günü" keçirilib

Özünəməxsus təhsil ənənələri ilə seçilən UNEC-in möhtəşəm "Məzun Günü" bir çox yeniliklərlə yadda qalıb.

"İnter Arena" stadionunda keçirilən təntənəli mərasim dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə universitetin rəhbərliyi, professor-müəllim heyəti, məzunlar və valideynlərlə yanaşı, dövlət rəsmiləri, millət vəkilləri, xarici qonaqlar, ictimaiyyət nümayəndələri, UNEC-in fəxri məzunları və II ixtisas qrupu üzrə 700 bal toplayan abituriyentlər iştirak edib.



Məzunları təbrik edən UNEC-in rektoru, professor Ədalət Muradov bu günü hesabat anı adlandırıb: "Bu gün ölkə başçısı, təhsil naziri, iş dünyası, valideynlər və bütövlükdə cəmiyyət qarşısında bizə əmanət edilən 3468 gəncin gələcəyə hazırlığı barədə hesabat veririk. Məzunlarımızın iş dünyasında peşəkar mütəxəssis kimi önəmli yer tutacağına, Azərbaycanın sosial-iqtisadi həyatında fəal rol oynayacağına, ölkənin hərtərəfli inkişafına öz töhfələrini verəcəyinə və Vətən qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəyinə əminik". Ə.Muradov UNEC-in məzunlara qazandırdığı bilik və dəyərlərin onlar üçün uğura aparan yol göstəricisi olacağını bildirib: "UNEC ailəsi olaraq digər məzunlarımız kimi sizin də naliyyətlərinizi qürurla izləyəcəyik!"

25 il öncə təhsil aldığı ali məktəbin bu önəmli gününə fəxri məzun kimi dəvət olunmaqdan məmnunluğunu ifadə edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universitetinin məzunu olmaları münasibətilə gəncləri təbrik edib. Ölkənin bilikli və bacarıqlı gənclərə, iqtisadçılara daim ehtiyacı olduğunu, UNEC-in bu tələbləri layiqincə yerinə yetirdiyini diqqətə çatdıran V.Gülməmmədov UNEC-in son dövrdəki uğurlarını, beynəlxalq reytinqlərdə yer almasını və dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlığını qürurla izlədiyini bildirib: "Sevindirici haldır ki, bu gün məzunlar arasında UNEC ilə Fransanın Monpelye Universitetinin ikili diplom proqramının ilk məzunları da var".

"Məzun Günü"ndə iştirak etmək üçün Azərbaycana gələn Fransanın Monpelye Universitetinin Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri, "Beynəlxalq Biznes Mühəndisliyi" Magistr Proqramının və "Beynəlxalq Menecment və Biznes" Bakalavr Proqramlarının rəhbəri, professor Gilles Sere de Lanauze Azərbaycanla Fransa arasında təhsil sahəsindəki uğurlu əməkdaşlığı təqdirəlayiq adlandırıb. UNEC ilə Monpelye Universitetinin ikili diplom proqramının əhəmiyyətindən söz açan qonaq bu əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, Monpelye Universitetinin UNEC ilə uğurlu əməkdaşlığını digər sahələrdə də inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Sonra proqramın ilk məzunlarına Monpelye Universitetinin diplomları təqdim edilib.

Universitetin ənənəsinə uyğun olaraq, ən yüksək bal (98.53) topladığına görə adı UNEC-in fəxri daşına həkk edilən Beynəlxalq İqtisadiyyat Məktəbinin məzunu Səbinə Nəcəfzadə UNEC tələbəsi olmağın üstünlüklərindən danışıb. Bildirib ki, UNEC-də tələbələrin beynəlxalq standartlara cavab verən ali təhsil alması üçün hər şərait yaradılıb. Adını universitetin tarixinə uğurlu tələbə kimi yazdıran S.Nəcəfzadə UNEC məzunu olmağı ilə fəxr etdiyini bildirib.

S.Nəcəfzadə UNEC-in bayrağını III kurs üzrə ən yüksək nəticə göstərən tələbəyə təhvil verərək, 3468 məzun adından təntənəli and içib.

UNEC-in himninin sədaları altında dekanlar fakültə üzrə ən yüksək bal toplayan məzunları təltif edib. Sonra ənənəvi "papaqatma" mərasimi keçirilib.

Azərbaycanın xalq artisti Murad Dadaşovun aparıcılıq etdiyi tədbirdə tələbələri məzun olmaları münasibətilə əməkdar artist Röya Ayxan da təbrik edib. Populyar ifaçı Rauf və DJ Chına dinamik mahnıları ilə "Məzun Günü"ndə gənclər üçün unudulmaz anlar yaşadıb.

# "Excelsior Hotel & Spa Baku" otelində "Yay tədbiri 2018" keçirilib



29 iyun 2018-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelinin açıq hovuzda yerləşən Pool Bar restoranında "Yay tədbiri 2018" keçirilib.

Tədbirdə otelin biznes tərəfdaşları, işgüzar dairələrin nümayəndələri, turizm agentlikləri və KİV nümayəndələri iştirak ediblər. Açılış mərasimində çıxış edən "Excelsior Hotel & Spa Baku" otelinin baş meneceri Turhan Poyraz qonaqları salamlayaraq onlara otelin yay mövsümündə istirahət etmək üçün olan imkanlar haqqında ətraflı məlumat verib.

O, qeyd edib ki, bundan sonra paytaxtın qonaqları və sakinləri şəhərdən kənara çıxmadan qızmar yay günlərində gözəl şəraitdə dincələ, günəş şüaları qəbul edə, suyun yanında axşam mehindən həzz ala bilərlər.

Sərinləşdirici içkilər, otelin peşəkar aşpazlarının hazırladığı ləzzətli təamlar və canlı musiqi hovuz ətrafında gözəl ab-hava yaradıb. Tədbirdə əməkdar artist Tünzalə Ağayevanın gözəl ifası bütün qonaqların ürəyincə olub. DJ musiqisinin sədaları altında qonaqlar rəqs ediblər.

Tədbirin müxtəlif saatlarında aparıcı Kamilə Babayevanın təqdimatında qonaqlar lotoreya oyununda iştirak ediblər.

Lotoreyada qonaqlar "Excelsior Hotel & Spa Baku" otelinin "Aura" Sağlamlıq mərkəzinə 1 günlük, 1 aylıq, 3 aylıq, 6 aylıq, 1 illik üzvlük kartları və müxtəlif hədiyyələr qazanıblar.

"AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilara Zamanova bildirib ki, "Excelsior Hotel & Spa Baku"otelində yay mövsümünün açılışına həsr olunmuş ənəvi yay tədbiri hər il keçirilir.

# Bakcell media nümayəndələri üçün yarış təşkil edib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti jurnalistlər arasında Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə atıcılıq üzrə yarış keçirib.

Bakı Atıcılıq Mərkəzində təşkil olunmuş bu yarışda ölkənin müxtəlif media resurslarını təmsil edən 50-dən artıq jurnalist iştirak edib. Yarışdan öncə media nümayəndələri üçün atıcılıq üzrə təlim keçirilib. Təlimdən sonra isə jurnalistlər öz istəklərinə uyğun olaraq qruplara ayrılaraq Stend atıcılığı və Güllə atıcılığı üzrə yarışlara qatılıblar.



Əyləncə və dostluq atmosferində keçirilmiş yarışın qaliblərinə "Bakcell"dən maraqlı hədiyyələr təqdim edilib.

Bakcell şirkəti mütəmadi olaraq Azərbaycanda fəaliyyət göstərən müxtəlif media resurslarının nümayəndələri üçün mobil telekommunikasiya, informasiya və kommunikasiya texnologiyaları və digər vacib mövzularda təlimlər keçirməklə bu sahənin inkişafına yönəlmiş layihələrə dəstək göstərir.

# «A'Startup 2018» sammitinə startapların qeydiyyatı başladı!

Azərbaycanda A'Startap Sammiti «Azercell Telekom»un "Barama" mərkəzinin dəstəyi ilə keçirilir.

Ölkəmizdə sahibkarlığa dəstək vermək məqsədilə 2009-cu ildə "Azercell Telekom" MMC tərəfindən yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir layihə həyata keçirməyi planlaşdırır. Belə ki, mərkəz "Aforyouth" təşkilatı ilə birlikdə Azercell və "PAŞA Bank"ın baş sponsorluğu ilə 18-20 iyul tarixlərində Bakıda "A'Startap Sammiti 2018"və intensiv seminar keçirəcək. 3 günlük tədbir sahibkarların, gənc liderlərin biznes və yaradıcılıq bacarıqlarının artırılmasına dəstək məqsədilə təşkil olunur. Tədbirin ilk günü işgüzar əlaqələrin qurulmasına həsr olunacaq: beynəlxalq arenaya çıxmağa can atan 45 yerli sahibkar bir-birini tanımaq və gələcək potensial tərəfdaşlarla əlaqələr qurmaq imkanı əldə edəcək. Komandanın formalaşmasından sonra müxtəlif biznes metodlarından istifadə edərək problemin müəyyənləşdirilməsi həyata keçiriləcək. Sammitin ikinci günü gənc startapları narahat edən problemlərin müzakirəsinə və onların həlli istiqamətində müəyyən tövsiyələrin verilməsinə




həsr olunacaq. Tədbirin sonuncu günü isə Azərbaycanın biznes icması üçün açıq gün olacaq və iştirakçılar son iki gündə formalaşdırdıqları startap ideyalarını müvafiq şirkətlərə təqdim edəcəklər. "A'Startup Summit 2018" tədbirində iştirak etmək üçün http://summit.aforyouth.com/səhifəsinə daxil olmaq lazımdır. Yerlərin sayı məhduddur.

Qeyd edək ki, Azərbaycanda yaradılmış ilk İnkubasiya mərkəzi olan Azercell-in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi zəngin təcrübə, peşəkar mentorlarla əlaqələr və nüfuzlu əməkdaşların dəstəyinə malik olması ilə fərqlənir. Barama İT layihələri, Bulud Hesablamalar (Cloud Computing) və Biznes Həlləri, Oyunlar, IOT, Fintech, Kənd Təsərrüfatında İnnovativ Həllər, Virtual Reallıq, İnkişaf Etmiş Reallıq və Süni İntellekti dəstəkləyir. Mərkəz Azərbaycanda bir sıra yüksək səviyyəli beynəlxalq yarışların təşkilatçısıdır, startapların öz bizneslərini qurmasına, innovativ xidmətlər göstərməsinə və yeni müştərilər əldə etməsinə kömək göstərir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyeva atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**